www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 yanvar 2017-ci il Cümə № 7 (6621) Qiyməti 60 qəpik

**Xəbər**

## Neftçalada evin 18 yaşlı tək oğlu intihar edib

yazısı səh.14-də

**Gündəm**

### Ağ Evdə tək...Trampın portret ştrixləri



Vaxtilə "Evdə tək"də epizodik rolda oynayan Amerika prezidenti üçün əsl film indi başlayır...

yazısı səh.10-da

### Ekspertlər milli valyutanın durumunu müzakirə edirlər, manat hansı həddə saxlanacaq?

yazısı səh.13-də

### AĞ Partiyanın qeydiyyat müəmması

yazısı səh.11-də

### Pensiyaların niyə gecikməsinin səbəbi bilindi

yazısı səh.3-də

### Azərbaycan müxalifəti Obamanın 8 illik prezidentliyinə qiymət verdi

yazısı səh.11-də

### Əfv ümidi marta qaldı

yazısı səh.3-də

### ADP ilə Ümidin 7 illik ittifaqı yenidən bərpa ediləcəkmi- sədrlər danışdı

yazısı səh.6-da

### Ölkəyə kameralı eynək gətirən QHT rəhbərinə ağır cəza

yazısı səh.14-də

### Şimali Kiprin Bakıdakı nümayəndəsi Cenevrə müzakirələrindən danışdı

yazısı səh.7-də

### SOS: Bakıda yayılan qrip ölüm gətirir

yazısı səh.12-də

### Danışıqlarda sıçrayışlı dönüş... olacaqmı?

yazısı səh.9-da

## Azərbaycanın yeni hərbi doktrinası gündəmi dəyişir

# "QARABAĞDA MÜHARİBƏ QAÇILMAZ OLACAQ..." - RUSİYANIN NÜFUZLU NƏŞRİ

Azərbaycanın öz hərbi qüdrətini durmadan artırması və prezident İlham Əliyevin son xəbərdarlıqları xarici medianın diqqətində; Londondakı analitik mərkəzin eksperti: "Bakı və Moskva anlaşsa, Ermənistan zorla sülhə məcbur ediləcək..."




yazısı səh.8-də

## Ev dustağı olan vitse-admiral bu gün qandallana bilər

Prokuror Hərbi Dəniz Qüvvələrinin sabiq komandanı Şahin Sultanova 13 il həbs cəzası istədi; 14 il Səfər Əbiyevin müavini olmuş vitse-admiralın taleyi ipdən asılı...

yazısı səh.5-də



Məhəmməd Həsənov

### Milli Qəhrəmanla Slavyan Universiteti rəhbərliyi arasında qalmaqal

yazısı səh.6-da



### Əli Kərimli ilə Qənimət Zahid arasında pul davası olubmu -mühacirətdəki redaktor danışdı

yazısı səh.4-də



### Avropa Şurasının xüsusi missiyası İlqar Məmmədov üçün Bakıya gəlib

yazısı səh.3-də


Torbyorn Yaqland


Mariya Zaxarova

## Yaqland və Zaxarova Azərbaycan əsgərinin cəsədinin qaytarılmamasından danışdı

**Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilmiş Azərbaycan əsgərinin cəsədinin qaytarılmasına çağıran bəyanatı yayılıb.**

Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin humanitar aspektlərindən narahatlıq ifadə olunub. Baş katib dekabrın 29-da baş vermiş hadisənin ölümlə nəticələnməsindən və Ermənistan silahlı qüvvələrinin həlak olmuş Azərbaycan əsgərinin cəsədini hələ də saxlamaqda davam etməsindən məlumatlı olduğunu bildirib.

T.Yaqland tərəfləri atəşkəsə əməl etməyə çağırıb və ATƏT-in Minsk Qrupunun 2010-cu il Həştərxan sammitində əldə edilmiş razılaşmalara uyğun olaraq cəsədin təxirə salınmadan qaytarılması ilə bağlı tələbini tam dəstəklədiyini qeyd edib.

"Bu faciəvi insident Azərbaycanla Ermənistan arasında baş verib. Hesab edirik ki, iki ölkə özündə müdriklik, güc və diplomatik imkan tapıb, bu problemi həll etməlidir".

Yanvarın 12-də keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da bu məsələyə münasibət bildirib. APA-nın Moskva müxbirinin "Ermənistan bütün çağırışlara məhəl qoymayaraq, ötən il dekabrın 29-da Azərbaycan-Ermənistan sərhədində baş verən insident zamanı həlak olmuş Azərbaycan hərbçisinin cəsədini qaytarmır. Rusiya XİN-in buna münasibəti necədir" sualına cavabında deyib.

M. Zaxarova qeyd edib ki, ölkələr bu çətin situasiyanı həll etməlidir. "Bu problemin açarı hər iki tərəfin əlindədir", - deyə o bildirib.

## SOCAR istiqrazları üzrə faizlərin ödənişinə başlanır

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) dollarla buraxdığı SOCAR istiqrazları üzrə faizlərin ödənişi başlayır. "SOCAR Capital" şirkətindən verilən məlumata görə, nominal məbləği 1000 dollar olan və illik gəlirliliyi 5% olan SOCAR istiqrazları üzrə faizlər ildə 4 dəfə ödəniləcək.**

İlk faizlər yanvarın 17-dən ödəniləcək.

Hər bir istiqraz üzrə faiz ödənişi 12,5 dollardır. İstiqraz sahibləri bu pulları istədikləri kimi istifadə edə, bank hesabında saxlaya, nağd formada çıxara, o cümlədən yeni istiqraz ala bilərlər.

Həcmi 100 milyon dollar olan SOCAR istiqrazlarının sahiblərinə yanvar ayından başlayaraq hər dəfə 1 milyon 250 min dollar olmaqla, il ərzində ümumilikdə 5 milyon dollar faiz ödəniləcək.

Bu il növbəti faiz ödənişləri 2017-ci ilin 17 aprel, 17 iyul və 17 oktyabr tarixlərində olacaq.

## Vergidən yayınan sahibkarlara xəbərdarlıq edildi

**Fərdi sahibkarlar tərəfindən nağdlaşdırma məqsədilə pul vəsaitlərinin kart hesabına köçürülməsi vergidən yayınma məqsədi daşıyır, buna görə bu cür addım qanundan sui-istifadə hesab olunur. ("Trend").**

Bu sözləri Vergi Məcəlləsində dəyişikliklərə həsr olunmuş forumda Vergilər Nazirliyinin vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva deyib.

Onun sözlərinə görə, artıq bu məsələnin texniki tərəflərinin həll olunması üçün Azərbaycan Banklar Assosiasiyası ilə danışıqlar aparılıb, hazırda bu cür hallarda vergitutmanın mexanizmi dəqiqləşdirilir.

S.Musayeva qeyd edib ki, yeni qaydalara əsasən vergi ödəyicisinin kateqoriyasından asılı olmayaraq ödəmə mənbəyindən sadələşdirilmiş formada bir faiz həcmində vergi tutulacaq.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Qaz kəmərində eyni yerdə iki həftədə üç dəfə yanğın

## Şübhələnmək üçün əsaslar artır



**Səngəçal magistral qaz kəmərində iki həftədə 3 böyük partlayış və yanğın hadisəsinin baş verməsini rəsmi orqanlar texnogen qəza adlandırsalar da ayrı-ayrı deputatlar, ekspertlər terror versiyasının da araşdırılmalı olduğunu bildirirlər. İki həftədə üç dəfə eyni yerdə yanğın hadisəsi isə hadisənin mümkün səbəbləri arasında terror terror versiyasının istisna edilmədiyini söyləyənlərin sayını bir qədər də artırıb.**

Parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, **deputat Fərəc Quliyev** də təxribat ehtimalını istisna etmir: "Azərbaycan elə bir strateji regionda yerləşir ki, ölkəmizə qarşı belə cəhdlər olub və ola bilər. Bundan sonra da olacağını planlaşdıranlar ortaya çıxa bilər.

Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti və digər güc strukturlarımız kifayət qədər profilaktik, normal şəkildə fəaliyyət göstərirlər. Hesab edirəm ki, Azərbaycana qarşı təxribat və terror planlarının heç bir nəticəsi olmayacaq".

**Neftçilərin Hüquqlarını Müdafiə Cəmiyyəti İctimai Birliyinin rəhbəri Mirvari Qəhrəmanlı da eyni ərazidə qaz kəmərində üç partlayış və yanğının olmasının şübhələrə yol açdığını bildirdi. Qaz kəmərində öz-özünə partlayış olmur. Partlayış üçün sızma olmalıdır, sızma yerində isə kimsə kibrit yandırmalıdır ki, belə bir partlayış meydana çıxsın:** "Bu, elə-belə partlayışlar deyil. Son illər quruda olan qaz borularında bu böyüklüyündə partlayış baş verməyib. Müstəqil araşdırma aparılmalı, orada dəqiq nə baş veribsə, ölkə rəhbərliyinə, ictimaiyyətə məlumat verilməlidir. Bu, sıradan hadisə deyil. Ard-arda baş verməsi isə məsələnin ciddiliyini iddia eləməyə əsas verir. Bununla belə, müstəqil araşdırma olmasa, nəsə demək çətindir. Ona görə xüsusi, müstəqil komissiya işləyib konkret nəticəni ortaya qoymalıdır. Partlayışın təxribat və ya qaz sızmasından doğmasını yalnız müstəqil şəxslər deyə bilərlər. Belə olmayacağı təqdirdə, səbəb ictimaiyyətdən gizlədiləcək".

❑ **E.SEYİDAĞA**



## Bəstəkarlar İttifaqı Arif Məlikovun ittihamlarına cavab verib

**Azərbaycan Bəstəkarlar İttifaqı xalq artisti Arif Məlikovun ittifaqın ünvanına səsləndirdiyi ittihamlara cavab verib.**

Qurumun mətbuat xidmətindən APA-ya bildirilib ki, Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi "Musiqi dünyası" jurnalında ittifaqın fəaliyyəti ilə bağlı ildə iki dəfə hesabatı dərc olunur: "Arif Məlikov görkəmli bəstəkarımızdır, bizim ittifaqın hörmətli üzvüdür, SSRİ xalq artistidir. Onun ittifaq haqqında səsləndirdiyi fikirlərə təəssüf edirik. Azərbaycan Bəstəkarlar İttifaqı ölkəmizdə keçirilən bütün beynəlxalq səviyyəli tədbirlərin hazırlanmasında yaxından iştirak edir".

Qurumdan deyilib ki, Azərbaycan Bəstəkarlar İttifaqında 2007-ci ildən bu günədək hər il bəstəkar və ya musiqişünasların yubileyləri, müəllif konsertləri, yeni-yeni kitabların təqdimatları, yaradıcılıq axşamları, həmçinin xatirə gecələri keçirilir: "Azərbaycan Bəstəkarlar İttifaqının həyata keçirdiyi bütün işlər barədə dövrü mətbuat vasitələrində kifayət qədər məlumatlar, məqalələr dərc olunur, o cümlədən telekanallarda süjetlər və verilişlər efirə gedir.

Azərbaycan Bəstəkarlar İttifaqı ölkəmizdə keçirilən bütün beynəlxalq səviyyəli tədbirlərin hazırlanmasında yaxından iştirak edir. O cümlədən Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının rəsmi tərəfdaşlarından biri də Azərbaycan Bəstəkarlar İttifaqıdır və ittifaqın sədri xalq artisti, professor Firəngiz Əlizadə bu festivalın bədii rəhbəridir.

Bundan başqa, Azərbaycan Bəstəkarlar İttifaqı neçə illərdir yüksək səviyyədə Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalını keçirir və bu festivalda dünyanın müxtəlif ölkələrindən gələn məşhur musiqi kollektivləri ilə yanaşı ölkəmizdəki etnik qrupların ansambllarının iştirakını təmin edir.

Qeyd edək ki, xalq artisti Arif Məlikov APA-ya müsahibəsində Bəstəkarlar İttifaqını fəaliyyətsizlikdə ittiham etmişdi.

## Fevralda Azərbaycan və Aİ arasında danışıqlar başlayır



**Yaxın vaxtlarda Avropa İttifaqı və Azərbaycan arasında tərəfdaşlıq haqqında saziş üzə danışıqlar başlayacaq. "Turan"a diplomatik mənbələrdən məlum olub ki, danışıqlar fevralda başlaya bilər. 2016-cı ilin noyabrında Avropa İttifaqı (Aİ) Şurası danışıqların başlanması üçün mandat verib. Hazırda tərəflər nümayəndə heyətinin tərkibini formalaşdırır.**

Mənbə «Turan»a bildirib ki, saziş ticarət-iqtisadi məsələlərdən başlamış insan hüquqları və demokratik prinsiplərə əməl olunması məsələlərini əhatə edəcək.

Adətən Aİ "asandan mürəkkəbə doğru" prinsipi üzrə danışıqlar aparır.

Öncə tərəflər asan razılığa gəlinən məsələləri müzakirə edərək saziş bağlayacaqlar. Aİ-nin danışıqlarda prinsipi belədir: "Ya hər şey, ya heç nə".

Belə ki, əgər tərəflər bir bənd üzrə razılığa gəlməsələr, sənəd imzalanmayacaq.

Danışıqlara başlanması Brüsseldə hər iki tərəfdən yüksək vəzifəli şəxslərin iştirakı ilə keçiriləcək tədbirdə elan ediləcək.

Hazırda Aİ və Azərbaycan arasında münasibətlər 20 il öncə imzalanmış və 17 il öncə qüvvəyə minmiş tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş çərçivəsində tənzimlənir.

## AVCİYA KVN rəhbərliyindən təxribatı dayandırmağı tələb etdi

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Şən və Hazırcavablar Klubunun (KVN) rəhbərliyindən təxribata son qoyulmasını tələb edib. AVCİYA-nın bununla bağlı müraciətində deyilir:**

- "KVN - 2017" adlı 28-ci şən və hazırcavablar Beynəlxalq Festifalında bir çox ölkələrin komandaları ilə yanaşı "Çörək və Duzla" adlı qondarma "Dağlıq Qarabağ" komandasının da iştirak etməsinə Azərbaycan xalqı qəti etirazını bildirir.

Nəinki Rusiya dövləti, bütün dünya Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi faktını qəbul edir və 1 milyondan artıq azərbaycanlının işğal bölgəsindən məcburi köçkün düşməsi, Ermənistan silahlı qüvvələri tərəfindən çoxsaylı insanların amansızcasına qətlə yetirilməsi barədə məlumatlıdır. Elə 2016-cı ildə AŞ PA-nın qəbul etdiyi 2085 saylı qətnamə bunun əyani sübutudur. Avropa Şurasına üzv olan 47 Avropa ölkəsi bu qətnaməyə səs verərək Ermənistan dövlətini işğalçı kimi tanıdı, Ermənistan silahlı qüvvələrini işğal bölgəsindən geri çəkilməsini tələb etdi.

İşğalçı Ermənistan işğalı leqallaşdırmaq üçün Dağlıq Qarabağı müstəqil dövlət olaraq tanıtmaq istiqamətində 25 ildir iş aparır, lakin onlar bu məqsədlərinə nail ola bilmirlər.

Qondarma "Dağlıq Qarabağ" komandasının bu festivalda tərəf kimi çıxış etməsi birbaşa Ermənistanın işğalçı siyasətinə dəstək verilməsinə xidmət edir.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası olaraq Ermənistanın işğal altında saxladığı ərazilərdə formalaşdırdığı separatçı qondarma "Dağlıq Qarabağ Respublikasını" təmsil edən "Çörək və Duzla" adlı komandanın festivalda iştirakının dərhal dayandırılmasını tələb edir, ictimai rəydə çaşğınlıq yaradılmasının qarşısını almağa çağırırıq.

Hesab edirik ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycanın Rusiyadakı səfirliyi, diaspor təşkilatlar bu təxribatın qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görməlidirlər».

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017



# İlqar Məmmədovun işində mühüm gəlişmə - Avropanın xüsusi missiyası Azərbaycana gəldi

## Avropalı həmməruzəçilər ölkə başçısı ilə görüşdülər; qonaqlar bu gün vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüş keçirəcəklər



**Yanvarın 12-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennakın Azərbaycana səfəri başlayıb. Həmməruzəçilər prezident İlham Əliyevlə görüşüblər.**

Danışıqların təfərrüatı açıqlanmır. Səfərdə məqsəd Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinin qiymətləndirilməsidir.

Həmməruzəçilər səfər çərçivəsində vətəndaş cəmiyyətinin nümayəndələri ilə də görüşəcəklər.

Bu barədə "Yeni Müsavat"a məlumat verən **İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı** görüşün yanvarın 13-də reallaşacağını söylədi: "Həmməruzəçilər vaxtaşırı ölkəmizə gəlirlər. Gəlişlərində məqsəd odur ki, dövlət strukturları və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşüb məlumat toplasınlar və hazırladıqları hesabatlarda bunlar öz əksini tapsın. Bu bir işçi səfəridir. Ona görə də buna xüsusi bir hadisə kimi baxmaq lazım deyil. Bizimlə görüşləri yanvarın 13-də olacaq. Proqramın bu şəkildə tutulması, yəni birinci cənab prezidentlə, sonra bizimlə görüşmələri bizim işimizə müəyyən çətinliklər yaradır. Əvvəl bizimlə görüşüb, bəzi məsələlərin həllini müzakirə etsələr, bizim mövqelərimizi öyrənib sonra ölkə başçısı ilə görüşsələr, daha məqsədəuyğun olardı. Amma bu onların da günahı deyil. Çünki Strasburqda bu proqram belə tutulub. Mən və həmkarlarım onun tərəfdarıdır ki, hər hansı bir məsələ ortaya çıxanda onu dialoq vasitəsilə həll edək. Bu görüşdə İşçi Qrupunun fəaliyyətini göz önünə gətirəcəyik ki, bu zaman ərzində hansı işləri görmüşük. Burada tək siyasi məhbus məsələsi müzakirə olunmayacaq. Orada Azərbaycanın üzərinə götürdüyü bütün öhdəliklər barədə söhbət açılmalıdır. Tək siyasi məhbuslar üzərində fikirləri cəmləşdirmək düzgün deyil. Azərbaycandan Avropaya siyasi məhbuslarla bağlı çaşqınlıq yaradan neçə-neçə rəqəmlər gedir. Bu, çox xoşagəlməz bir hadisədir. Nəticədə problemin çözülməsində çətinliklər yaranır. Bir məsələni önə çəkməklə bütün məsələlər həll olunmur. Əksinə, dalana tıxanırıq".

Həmməruzəçilərlə eyni vaxtda Avropa Şurasının xüsusi missiyası da ölkəmizə gəlib. Səfərdə məqsəd Avropa Şurasının üzvü üçün məcbur olan qərarların yerinə yetirilməsindən Azərbaycanın imtina etməsi ilə bağlı məsələlərin öyrənilməsidir.

Yanvarın 11-də AŞ baş katibi Yanqland Strasburqda müşavirədə bildirib ki, onun qərarı ilə təşkilatın nizamnaməsinin 52-ci maddəsi əsasında yaradılan xüsusi missiya Azərbaycana gedib.

**"Missiya Bakıda İlqar Məmmədovun işi ilə bağlı qərarı və bununla əlaqədar digər məsələləri müzakirə edəcək"**, - Yanqland vurğulayıb.

Həmin gün Avropa Şurası katibliyinin hüquq departamentinin direktoru Filip Buaya və siyasi məsələlər üzrə direktor Aleksandr Gessel baş prokurorun müavini Namiq Əsgərovla görüşüblər.

Qeyd edək ki, Avropa Şurasının nizamnaməsinin 52-ci maddəsi AŞ qərarlarına məhəl qoyulmaması və üzərinə götürülən öhdəliklərin yerinə yetirilməsindən imtina halları ilə bağlı təşkilat üzvü olan ölkələrə sanksiya tətbiqini nəzərdə tutur. Azərbaycan hökuməti isə Avropa Məhkəməsinin İlqar Məmmədov və Əli İnsanovla bağlı qərarlarını hələ də icra etmir.

REAL Hərəkatının İdarə Heyətinin üzvü Azər Qasımlı "Yeni Müsavat"a bunları dedi: "İlqar Məmmədov 4 ilə yaxındır həbsdədir. Bu müddət ərzində Avropa Şurasının, Avropa İnsan Haqları Məhkəməsinin, Avropa Şurası Nazirlər Komitəsinin çoxsaylı qərarları var. Bunların heç biri həyata keçirilməyib. Haqlı olaraq da Almaniya və Böyük Britaniyanın xarici işlər nazirliklərinin İlqar bəyin işi ilə bağlı bəyanatları oldu. Bildirildi ki, İlqar Məmmədovu dərhal azad etmək lazımdır, onun heç bir günahı yoxdur, əksinə, onun hüquqları pozulub. İndiyə qədər bu tipli iradlar, bəyanatlar Avropadan dəfələrlə Azərbaycana qarşı səslənib. Avropa Şurasının Nazirlər Komitəsi ötən il belə bir qərar qəbul etdi ki, qurumun hər həftəki iclasında İlqar Məmmədov azadlığa çıxmayana qədər onun məsələsi gündəliyə ayrıca bir məsələ kimi salınacaq. Bu çağırışlardan sonra İlqar Məmmədov azad olunmadı, ötən il noyabrın 18-dəki Ali Məhkəmədən sonra tam aydın oldu ki, hakimiyyət onu azad etmək istəmir. Təbii ki, bundan sonra qərara alındı ki, Azərbaycana xüsusi bir missiya göndərilsin. Ümid edirik ki, bu missiyanın sonuc etibarı ilə müsbət nəticəsi olacaq. Bundan sonra İlqar Məmmədovun həbsdə saxlanılması tək iqtidarın öz maraqlarına deyil, ümumən Azərbaycanın maraqlarına ziddir. Əgər İlqar bəy həbsdə saxlanılsa, ölkəmizə sanksiyalar gözləyir. Avropa Şurası tərəfindən Azərbaycanın nümayəndə heyətinin mandatı dondurula bilər, nəticədə ölkəmiz səsvermə hüququndan məhrum olunar. Bunun da Azərbaycanın dövlət imicinə müsbət nəticəsi olmaz. Qarabağ münaqişəsinin həlli istiqamətində bu amilin ciddi zərbə vura biləcəyini də unutmaq olmaz. Ümid edirik ki, Azərbaycan hökuməti bunları nəzərə alıb, doğru qərarı, nəhayət, verə biləcək".

❑ Cavanşir ABBASLI



# Əfv ümidi marta qaldı

## Novella Cəfəroğlu: "160 nəfərlik siyasi məhbus siyahısının ortaya çıxarılması gerçək siyasi məhbusların da işini qəlizləşdirir"

**Yeni ildə əfv sərəncamı verilməsə də, bu addımın Novruz bayramında atılacağına ümidlər var. Amma əfvin may ayının 10-da və ya 28-də olacağını deyənlər də var.**

Əfv Komissiyası üzvlərinin və hüquq müdafiəçilərinin də bu məsələyə dair konkret bilgiləri yoxdur. Onlar bunun ölkə başçısının müstəsna səlahiyyəti olduğunu qeyd edirlər.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** "Yeni Müsavat"a açıqlamasında mart ayına qədər çox şeyin dəyişəcəyini bildirdi: "Novruzda bir çox siyasi məhbus azadlığa çıxa bilər. Bilirsiniz bu problemlərin ən çox yaranmasına səbəb nədir? Azərbaycanda hər kəs özünün siyasi məhbus siyahısını hazırlayıb. Birində 160, birində 120 və digərində də 92-dir. Əgər hamı toplaşıb siyasi məhbusların konkret siyahısını ortaya çıxarmasa, bu məsələ çox pis sonluqla nəticələnə bilər. Hazırda çox absurd bir durum var. Siz jurnalistlər və digər sahələrin təmsilçiləri bunu yaxşı görürlər. Biz demirik ki, islamçıların işləri düzgün aparılır. Amma onlar siyasi məhbus deyillər, lakin məhkəmələri düzgün aparılmalıdır. Orada elə insanlar var ki, həbsxanadan çıxmalıdır. Onların adını ayrı qoymaq lazımdır. Sırf siyasi məhbus olanlar Əli İnsanov, İlqar Məmmədov, İlkin Rüstəmzadə və digərləridir. Onlar azad olunmalı idilər. Hətta Əli İnsanovun cəzası başa belə çatmışdı. Onların məsələsini qaldırmaq lazımdır. Fuad Qəhrəmanlı, Faiq Əmirli və bu tipli məhbusların da məsələsini gündəmdə saxlamaq çox vacibdir. Faiqi mən uşaqlığından tanıyıram və bilirəm ki, o, necə bir insandır. Onların tezliklə azad olunmalarına çalışmalıyıq. İslamçıların məlumatlarına baxmışıq. Düşünürəm ki, onların məsələsini məhkəmədə həll etmək olar. 160 nəfərlik siyasi məhbus siyahısının ortaya çıxarılması təmiz siyasi məhbusları kölgədə qoyur, onların işini qəlizləşdirir. Amma mart ayına yaqin ki, çox ciddi dəyişikliklər olacaq, onlar azad olunacaqlar".

**Hüquq müdafiəçisi tez-tez dəyişikliklər dedikdə nələri nəzərdə tutduğunu da söylədi:** "Mart ayına qədər səbir edin, Azərbaycanda çoxlu dəyişikliklərin olacağına birlikdə şahidlik edəcəyik. İnsan haqları ilə bağlı ciddi dəyişikliklər olacaq. Bizim siyahı məhbus siyahısında 34 nəfərin adı var. Amma digər məhbuslar barədə də danışırıq. Çoxlarının cəza müddətləri başa çatmaq üzrədir. Dəyişiklikləri ümidlə gözləyirik. Xaricdə oturub siyasi məhbus siyahıları hazırlamaq, oradan qışqırmaq heç vaxt yaxşılıq gətirməyib. Hamımız bir yerə yığışıb, bu məsələni çözə bilərik. Beynəlxalq təşkilatlar böyük köməkliklər göstərirlər. Onlara minnətdar olmaq lazımdır. Amma ən çox özümüzünkülərlə bu problemi həll etmək lazımdır".

Xatırladaq ki, sonuncu dəfə əfv sərəncamı Azərbaycanda ötən ilin martında verilib. Həmin sərəncamla çoxsaylı siyasi məhbus azadlığına qovuşub.

❑ Cavanşir ABBASLI

# Pensiyaların niyə gecikməsinin səbəbi bilindi

**Yaxın günlərdə yanvar ayının pensiyalarının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin pensiyaçıların hesablarına köçürülməsinə başlanılacaq.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Elman Babayev lent.az-ın sorğusuna cavab olaraq bildirib ki, Azərbaycanda əmək pensiyalarının maliyyələşməsində hər hansı problem mövcud deyil.

E.Babayev bildirib ki, ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən ötən dövrdə ölkəmizdə pensiyaların maliyyələşdirilməsi prosesi bütün aylarda heç bir gecikmə olmadan, normal qaydada həyata keçirilib. Vətəndaşlara hər ay vaxtlı-vaxtında, bir sıra hallarda vaxtından daha əvvəl pensiyaların ödənilməsi təmin edilib.

Qurum rəsmisi onu da qeyd edib ki, cari ayda da pensiyaların maliyyə təminatında heç bir problem yoxdur: **"Yeni təqvim ilinin ilk ayı, həmçinin bu ayın ilk günlərinin bayramla əlaqədar qeyri-iş günləri olduğundan pensiyaların plastik kart hesablarına çatdırılması müvafiq əlavə texniki prosedurlar keçirilməsi ilə təmin olunur. Ona görə də bunun maliyyə çatışmazlığı kimi qiymətləndirilməsi doğru deyil.**

**Bildiririk ki, yaxın günlərdə yanvar ayının pensiyalarının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin müvafiq qrafik əsasında pensiyaçıların hesablarına köçürülməsinə başlanılacaq".**

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017




## Şəmkirdəki məktəbdə porno-video qalmaqalı böyüdü

### Təhsil Nazirliyi işə qarışdı; Seyfəli kənd tam orta məktəbinin direktoru Akif Namazov işdən çıxarılır

**Şəmkir rayonunun Aşağı Seyfəli kəndində yerləşən M.Süleymanov adına Seyfəli kənd tam orta məktəbinin direktoru Akif Namazov və orada laborant işləmiş Xatirə Əliyeva arasındakı qalmaqal böyüyür.**

Xəbər verdiyimiz kimi, laborant Xatirə Əliyevanın ittihamlarına görə, direktor Akif Namazov diplomuna imtina gəlmiş müəllimlərdən külli miqdarda rüşvət alıb, şantaj yolu ilə onu işdən çıxardıb: "Məktəbimizdə 400 şagird təhsil alır. Lakin davamiyyət 50 faizdən aşağıdır. Şagirdlərdən iki nəfər azyaşlı olmalarına baxmayaraq, ailə həyatı qurub. Hazırda Rusiyada alver edən şagirdlərin adı dərs jurnalında gedir. Bəs Akif Namazov kimdir? O, vaxtilə türmə həyatı sürmüş, öz uşaqlarına tərbiyə verməyi bacarmayan *(oğlu 2016-cı ildə gənc əsgərlərdən "reketçiliklə" pul aldığına görə 6,5 il cəza alıb)* müəllimdir. 24 dekabrda müəllimlərin diaqnostik qiymətləndirilməsi ilə bağlı bəzi müəllimlərimizin diplomlarına imtina gəlmişdi. Diplomların skaner olunub bazaya yüklənməsini tapşırmışdılar.

Diplomlar yoxlanıldıqdan sonra müəllimlərin imtahana buraxılmasına icazə verildi. Diplomların düzəldiyini bilən Akif Namazov müəllimlərin bəzilərindən müxtəlif məbləğlərdə pul tələb etdi, guya bu, nazirlikdən tələb edilib. Beləliklə, hər sentyabrın əvvəlində və hər ay direktor müəllimlərdən müxtəlif şantajlarla pul toplayır. Bu haqda əlimdə səs yazıları da var. Məni də şantaj edib, bugünlərdə işdən çıxartdı. Buna səbəb kimi isə məktəbdə olan kompüterlərin sayının normativə görə kompüter laborantlarının sayı ilə uyğun gəlməməsini əsas gətirdi".

**İttihamlara cavab verən məktəbin direktoru Akif Namazovun sözlərinə görə, laborant Xatirə Əliyevanı seks videolarına görə işdən azad edib:** "Birinci ona görə işdən çıxartmışam ki, ştat artıq olub. O, özünə lazım olan böhtanları deyir, amma həqiqəti gizlədir. İndi mən sizə həqiqəti deyim. Deməli, 14 kompyütərə bizdə iki laborant düşür. Onun da ştatı artıq idi. Xidmətçilərin hesabına ona ştat düzəldiblər, bunun üçün də 3 min manat pul verib. O, məktəbin müəyyən sənəd işlərini görürdü. Mən də şagirdlərin qeydə alınması üçün noutbuk almışdım. O da həmin noutbuku evə aparıb-gətirirdi. Ayın 9-da mən o kompüteri onun əlindən aldım. O, çox çalışdı ki, həmin noutbuku geri alsın, bəhanə də gətirdi ki, mənim orada ailə şəkillərim var. Sən demə, noutbuka seks videoları qoyubmuş. Mən onu üzə çıxartmışam. Təsəvvür edin ki, canlı seksdir. Mən bu yaşa çatmışam, amma belə canlı seks görməmişdim".

**Direktor diplom işinə imtina gələn müəllimlərdən rüşvət alması ittihamına da cavab verib:** "Bəli, bəzi müəllimlərimizin diplomuna imtina gəlmişdi. Lakin sonra ciddi araşdırma aparıldı, məlum oldu ki, onlar haqqında düzgün məlumat verilməyib, sənədləri yerindədir və onlar imtahana buraxıldı. Əgər bu yalan olsa, pencəyimi götürüb, məktəbdən getməyə hazıram".

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov lent.az -a açıqlamasında bildirib ki, məktəbdə yaşanmış qalmaqalla bağlı Şəmkir Təhsil Şöbəsi tərəfindən hazırda araşdırma aparılır.

**Şəmkir kənd məktəbindəki qalmaqala görə direktor vəzifəsindən uzaqlaşdırıla bilər. Bu barədə Şəmkir Rayon Təhsil Şöbəsinin İctimaiyyətlə əlaqələr üzrə rəsmisi Kənan İbrahimov modern.az saytına verdiyi açıqlamasında bildirib. K.İbrahimov deyib ki, direktorun məsuliyyətə cəlb olunması da istisna edilmir:** "Cinayət məsuliyyətinə cəlb olunmasına isə Daxili İşlər Nazirliyi və Baş Prokurorluq qərar verə bilər. Amma Təhsil Şöbəsi olaraq bizim üzərimizə düşən odur ki, faktlar sübut olunsa, həmin direktor məktəbdən, təhsildən uzaqlaşdırılsın. Çünki istənilən halda bu, təhsilin adına ləkədir. Təhsil Nazirliyi olaraq vəzifəmiz təhsildə şəffaflığı təmin etməkdir".

❑ **Xalidə GƏRAY**

# Əli Kərimli ilə Qənimət Zahid arasında pul davası olubmu - baş redaktor danışdı

## Qənimət Zahid: "Biz qrant almamışıq, almırıq... Fransaya hər kim gəlsə, yazacaqlar ki, Qənimətlə dalaşdı?"

**Azərbaycan saytlarında AXCP sədri Əli Kərimli ilə "Azadlıq" qəzetinin baş redaktoru və "Turan TV"nin rəhbəri Qənimət Zahid arasında qrant qalmaqalı yaşanmasına dair xəbərlər yayılıb. AzToday.az saytında dərc olunan xəbərə görə, Corc Sorosa bağlı donor təşkilatlardan birinin "Azadlıq" qəzetinə ayırdığı 175 min avroluq qrant layihəsinin pulunu Azərbaycana birbaşa gətirmək imkanı olmadığından, həmin vəsait hazırda Fransada yaşayan Qənimət Zahidə çatdırılıb. Mənbə iddia edib ki, Qənimət Zahid həmin vəsaiti Bakıya çatdırmaq əvəzinə özünün TV layihəsinə xərclədiyindən Əli Kərimli bundan narazı qalıb və həmin vəsaiti Q. Zahiddən tələb edib. Sayt bildirir ki, yaşanan qalmaqalı çözmək üçün Əli Kərimli "Azadlıq" qəzetinin baş redaktorunun birinci müavini Rahim Hacıyevi yanvarın 5-də Fransaya yola salıb.**

Sayt eyni zamanda yazıb ki, böyük ehtimalla Rahim Hacıyev Qənimət Zahiddən 175 min avro pulun müəyyən hissəsini alaraq geri dönəcək. Xəbərdə yazılana görə, Q. Zahidin 175 min avro vəsaiti özündə saxlaması səbəbsiz olmayıb. Belə ki, Əli Kərimlinin rəhbərlik etdiyi "Azadlıq" qəzetinin çapının bərpa olunmamasından və azadliq.info saytının informasiya siyasətindən Qənimət Zahid narazı qalıb. Söhbət Əli Kərimlinin məlum səbəblərdən "Azadlıq" qəzetini hakimiyyətə güzəştə getməsindən gedir... Donor təşkilat tərəfindən "Azadlıq"a ayrılmış 175 min avroluq qrant layihəsi qəzetinin 6 ay ərzində bütün maliyyə məsrəflərinin ödənilməsi üçün nəzərdə tutulubmuş. Artıq layihənin icra olunduğu ilə bağlı bütün sənədlər saxtalaşdırılaraq donor təşkilata göndərilib. Layihədə "Azadlıq" qəzetinin əməkdaşlarına 1000-1500 avro həcmində maaş verildiyi qeyd olunub. Amma sayt Əli Kərimlinin Rahim Hacıyev tərəfindən Fransada Qənimət Zahiddən alınıb, Bakıya gətirəcəyi pulu qəzetin deyil, özünün və partiyanın xərclərinə sərf etmək niyyətində olduğunu da qeyd edib. Sayt daha sonra yazır: "Əli Kərimli ilə Qənimət Zahid arasında yaşanan 175 min avroluq qalmaqaldan araşdırmaçı jurnalist, vicdan məhbusu olmuş Xədicə İsmayıl da bərk narahat olub. Belə ki, xanım jurnalist 175 min avroluq vəsaitin təyinatı üzrə xərclənməməsi və saxta sənədlərlə layihənin icra olunduğunu göstərdiklərinə görə Əli Kərimlinin dəstəsinə iradını bildirib. AXCP sədri Əli Kərimlinin nəzarətinə aldığı "Azadlıq" qəzetinin çapını dayandırması və bərpa etməməsi ilə bağlı indiyədək müxtəlif iddialar səslənib. Bəzi məlumatlara görə, qəzetin çapının bərpa edilməməsində Əli Kərimli özü maraqlıdır və məqsədi xarici təşkilatlardan pul almaqdır. Amma görünür, Əli Kərimli çevrəsini aldatmağa müvəffəq ola bilməyib".

**Ölkə.az saytı isə bu informasiyaları daha da dərinləşdirərək, yeni rakurslara toxunub. Sayt yazıb ki, bu yaxınlarda Fransaya səfər edən "Azadlıq" qəzetinin baş redaktorunun birinci müavini Rahim Hacıyev, qəzetin yazarı Səadət Cahangir, AXCP-nin Cəlilabad rayon təşkilatının sədri Təzəxan Mirələmli və Xatirə Əliyeva bu ölkədən (Fransadan) deportasiya edilib. Məqalədə göstərilib ki, buna səbəb Rahim Hacıyevlə Q.Zahid arasında şiddətli mübahisənin baş verməsi olub. Sayt aşağıdakıları qeyd edib:** "Ağır maliyyə böhranında olan və çapını dayandıran "Azadlıq" qəzetinə ənənəvi formatının bərpası üçün bir neçə beynəlxalq qeyri-hökumət təşkilatı və fondu tərəfindən 175 min avro məbləğində vəsait ayrılıb. Həmin vəsaiti isə Fransada yaşayan Qənimət Zahid əldə edərək, özünün yeni təsis etdiyi "Turan TV"yə sərf etmək üçün saxlayıb. Ancaq həmin vəsaitin yarısını almaq üçün Rahim Hacıyev, Səadət Cahangir, Təzəxan Mirələmli və Xatirə Əliyeva ötən həftə AXCP sədri Əli Kərimlinin göstərişi ilə Fransaya yollanıb. Əli Kərimli göndərdiyi şəxslərə təlimat verib ki, 175 min avronun ən azı yarısı Qənimətdən alınaraq, ona gətirilsin. Hətta həmin vəsaiti Bakıya gətirmək üçün hava limanında şübhə yaranmasın deyə, pulların 4 nəfərin arasında bölünməsi tapşırığı verilib. Ancaq Əli Kərimli ilə Qənimət Zahid arasında mövcud olan "soyuq" münasibətlər bu məsələdə də özünü göstərib. Rahim Hacıyev Q.Zahiddən pulun yarısını istəsə də, "yox" cavabı alıb. Q.Zahid R.Hacıyevlə söhbəti zamanı həmin pulları Əli Kərimliyə verməyəcəyini deyib. Bundan sonra onların arasında şiddətli mübahisə yaranıb. Hətta aralarında pul üstündə yaranan mübahisə Fransada əlbəyaxa dava ilə nəticələnib. Hadisəyə Fransa polisi də qarışmalı olub. Hadisə ilə əlaqədar Əli Kərimlinin Fransaya ezam etdiyi şəxslər polisə aparılıb, ifadələri alındıqdan sonra isə ölkədən deportasiya edilib".

**Ölkənin iki informasiya mənbəyində bir-birinin davamı olan iki informasiyanın verilməsi isə yetərincə diqqət doğurur. Bu xəbərlərin doğruluq payını öyrənmək üçün "Yeni Müsavat" öncə "Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifovla əlaqə saxladı. Müsahibimiz dedi ki, bu haqda onda heç bir məlumat yoxdur:** "Heç nə eşitməmişəm. Bizim əməkdaşlar xaricə internet təhlükəsizliyi ilə bağlı təlim var, ona görə gediblər. Qalan məsələlər barəsində isə məlumatım yoxdur".

**"Yeni Müsavat"a açıqlamasında Q.Zahid öncə onu dedi ki, bu barədə yazılanları "düşük yazılar" hesab edir. Müsahibimiz belə yazıların ciddi adamların diqqətini cəlb etməsinə təəccübləndiyini bildirdi:** "Bu axmaq fantaziyaların şərh edilməsi üçün sizin də, özümün də zamanıma heyfim gəlir. "Azadlıq" qəzetinin çap variantı borca, maliyyə probleminə görə bağlanmayıb. - bu, bir. "Azadlıq" qəzeti və ya "Turan TV" heç bir fonddan heç bir qrant almayıb - bu, iki. "Fransada dava düşdü, polis kimlərisə deportasiya elədi" kimi düşüncəsiz dezinformasiyaları şərh etmək isə mənasız bir işə daha mənasız zaman israfıdır. Məndən sonra Fransaya kim gəlsə, yazacaqlar ki, getdi Qənimət Zahidlə dalaşdı geldi və mən də təkzib etməli olacam ki, yalan sözdü? Adıçəkilən şəxslər Fransaya internet təhlükəsizliyi ilə bağlı təlim üçün gəliblər və həmin təlimdə 40-50 nəfər adam iştirak edib".

**Q.Zahid "Turan TV"nin maliyyəsi ilə bağlı sualları da cavablandırdı. Dedi ki, bu günə qədər bu TV ilə bağlı ona 50 dəfə sual olub, 51 dəfə də cavab verməsinə baxmayaraq, hələ də mövzu davam edir:** "Bu, qrant layihəsi deyil. "Turan TV"nin yaradılması və fəaliyyəti ilə bağlı heç bir fonddan heç bir sent qrant alınmayıb. Siz ilk dəfədir soruşursuz, amma 51 - incisiz, hər halda. Amma mənə fərq eləmir...100 dəfə də soruşsalar cavab verəcəm. İndi qrantı yalnız hakimiyyətyönlü QHT-lər alırlar. Həm ölkənin daxilindəki, həm də xaricindəki mənbələrdən. Amma bizim TV-yə azərbaycanlılar yardım edirlər, abunə sisteminə bənzər bir sistem var. 100-lərlə insan yardım edir. 10 avrodan başlamış 100 avroya qədər. Biz bu sistemi qura bilmişik və elə də davam edirik. Başqaları üçün bir TV-nin aylıq xərcləri 50 mindən başlaya bilər, amma biz minimal xərclərlə davam edirik. Maaş almırıq. Texniki xərcləri ödəməklə kifayətlənirik. Bir qəzetin aylıq xərcindən daha az məbləğdə həll edirik. "Turan TV"yə dəstək vermək istəyənlər mənimlə əlaqə saxlaya bilərlər. Başqa heç kim bu işlə məşğul deyil və biz abunəçilərin gizliliyini qoruyuruq".



**Müsahibimiz söhbət zamanı "Azadlıq" qəzetinin çapının bərpasına da toxundu. Dedi ki, bu məsələ maliyyə problemi ilə bağlı deyil:** "Sadəcə, həbs etdikləri adamın əvəzinə səlahiyyət verilən başqasının imzasının bank tərəfindən tanınması lazımdır vəssalam. Bank isə (Beynəlxalq Bank) yuxarıdan sifariş gözləyir. Məsələ bu qədər bəsitdir".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017



# Prezident sözünü dedi, indi növbə iqtisadi komandanındır

## Dövlət başçısının 2017-ci illə bağlı hədəfləri göstərməsinə ölkə ekspertlərindən ilginc reaksiyalar; Vahid Əhmədov: "Bundan sonrakı iş komandadan asılıdır"

**Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı yekun nitqində prezident İlham Əliyev bir sıra vacib məqamlara toxundu. Ölkə rəhbəri ötən ili dəyərləndirməklə yanaşı, cari ildəki hədəfləri göstərdi, konkret vəzifələrlə bağlı hökumətə tapşırıqlar verdi.**

Prezident qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatı, turizm, sənayenin inkişafı, bank sektorunun sağlamlaşdırılması və digər məsələlərlə bağlı həyata keçirilməli tədbirlərdən danışarkən Azərbaycanın valyuta ehtiyatlarını xatırlatdı, ölkəmizin durumunun ümidsiz olması barədə proqnozları təkzib etdi. Eyni zamanda ölkə rəhbəri işğalçı Ermənistana və onun havadarlarına mesajlarını da səsləndirib. Qeyd edib ki, Azərbaycan bundan sonra da hərbi qüdrətinin artırılması üçün ən müasir silahlar almaqda davam edəcək. Dövlət başçısının sosial-iqtisadi və hərbi məsələlərlə bağlı çıxışını iqtisadi və hərbi ekspertlər "Yeni Müsavat"a şərh edib.

**"2017-ci il də 2016-cı il kimi o qədər də asan olmayacaq". Bu fikirlər Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədova məxsusdur. Deputatın fikrincə, ölkə başçısının müşavirədəki çıxışından da bir daha aydın oldu ki, Azərbaycanın qarşıya qoyduğu məsələlər çox ciddidir:** "Dövlət başçısı tərəfindən strateji yol xəritəsinin təsdiq olunması da bunun sübutudur. Bu proseslər 12 istiqamətdə həyata keçirilməlidir və təbii ki, bunun üçün müəyyən qədər vəsait lazımdır". V.Əhmədov qeyd etdi ki, qarşıya qoyulan hədəflərə maksimum şəkildə tez çatmaqdan ötrü prezidentin ən çox irad tutduğu sahələr - bank sistemində sağlamlaşdırma, şəffaflıq prosesi ciddi şəkildə, qısa müddətdə həyata keçirilməlidir: "Bunun üçün ciddi addımlar atılmalıdır. Çünki biz bank sistemini sağlamlaşdırmasaq, ümumi iqtisadiyyatın inkişafından danışmaq qeyri-mümkündür. Ümumiyyətlə, bunlar çox ciddi məsələlərdir. Cənab prezident bütün sahələrə toxundu, 2017-ci ildə hansında ki, müəyyən artımlar gözlənilir, o sahələrin anonsunu verdi. Amma mən hesab edirəm ki, bu il o qədər də asan il olmayacaq. Yəni müəyyən problemlər var. Düzdür, bir sıra sahələrdə müəyyən addımlar atılıb. Amma bunların bəhrəsini biz hardasa 2018-19-cu illərdə görəcəyik".

**V.Əhmədov bildirdi ki, 2017-ci ildə istər manat-dollar nisbəti, istər bank sistemi, istər ümumi Azərbaycan iqtisadiyyatı, istərsə də neftin qiyməti ilə bağlı gözləntiləri var:** "ABŞ prezidenti 20 yanvarda inauqurasiyasını keçirəcək, ondan sonra hansı istiqamətlərdə nə kimi yeniliklərin olacağını, hansı siyasi addımların atılacağını gözləyirik. Ən əsası odur ki, dövlət başçısı bütün məsələləri dərindən bilir və bu məsələlərlə əlaqədar özünün ciddi təhlilini, proqnozlarını və göstərişlərini verdi". **İqtisadçı deputat hesab edir ki, bundan sonrakı vəziyyət əsasən Azərbaycan hökumətinin aparacağı siyasətdən asılıdır:** "Bundan sonrakı iş komandadan asılıdır. İndi biz gözləyirik. Komandada da müəyyən dəyişikliklər olmalıdır. Çünki Azərbaycanda konstitusiya dəyişiklikləri ilə bağlı referendum keçirilib, vitse-prezidentlik institutlarının təsdiqi lazımdır. Yəni çox ciddi şəkildə kadr islahatları getməlidir. Bundan sonra nəsə gözləmək olar".

**İqtisadçı ekspert, sabiq maliyyə naziri Fikrət Yusifov isə ölkə başçısının nikbin fikirlərini bölüşərək bildirdi ki, neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi və bu səbəbdən valyuta gəlirlərinin bir neçə dəfə azalması tikinti sektorunda müəyyən tənəzzül yaratsa da, ötən ildə ölkə iqtisadiyyatının qeyri-neft sənayesində və aqrar sektorda pozitiv nəticələr əldə olunub:** "Hesab edirəm ki, bu, ilk növbədə Azərbaycan hökumətinin qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı atdığı konkret addımların nəticəsində mümkün oldu. Yola saldığımız ildə iqtisadi islahatların sürətləndirilməsini təmin edə biləcək çox əhəmiyyətli qərarlar qəbul edildi. Buna görə də 2016-cı ili doğrudan da sürətli iqtisadi islahatların başlanğıc ili kimi dəyərləndirmək olar. Ölkə iqtisadiyyatının real sektora transformasiya edilməsini hədəfləmiş bu islahat proqramlarının uğurla reallaşdırılması yaxın bir neçə il ərzində iqtisadiyyatın neftdən asılılığını optimal bir həddə endirmək gücündədir. İqtisadi islahatlara Azərbaycan hökumətinin verdiyi önəm dünyanın bir çox aparıcı maliyyə institutlarının da diqqətindən yayınmayıb. Dünyanın aparıcı iqtisadi beynəlxalq forumunun - Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı 2016-cı böhran ilində dünya miqyasında rəqabət qabiliyyətliliyinə görə 3 pillə irəliləyərək 40-cı pillədən 37-ci pilləyə qalxıb. Prezidentin yanvarın 10-da Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan müşavirədə dediyi kimi - bu, rekord göstəricidir. Bu göstəriciyə görə biz MDB məkanında birinciyik". **F.Yusifovun fikrincə, əslində bir ölkənin iqtisadiyyatında böhranlı durum varsa, onda bu göstərici bir qədər pisləşməli idi:** "Bizim halda isə bunun əksi baş verdi. Ümumi iqtisadi azalmalara baxmayaraq, biz bu sırada 3 pillə irəliləyə bildik. Deməli, nüfuzlu beynəlxalq qurumlar 2016-cı ildə start verdiyimiz islahatları yüksək qiymətləndirirlər. Yola saldığımız 2016-cı ildə Azərbaycan iqtisadiyyatına 8 milyard dollar xarici sərmayə qoyulub. Ümumilikdə ölkə iqtisadiyyatına qoyulan sərmayənin həcmi 11,7 milyard dollar təşkil etmişdi".

**"Hesab edirəm ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Nazirlər Kabinetinin iclasında hərbi sahə ilə bağlı çox önəmli mesajlarından dərhal Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna səfər etməsi də çox böyük siyasi və hərbi anlam daşıyırdı". Bu fikirlər isə hərbi ekspert Üzeyir Cəfərova məxsusdur. Ekspert prezidentin hərbi məsələlərlə bağlı dediklərini yüksək dəyərləndirdi və Azərbaycanın işğal altındakı ərazilərlə bağlı mövqeyinin dəyişməzliyinin sübutu saydı:** "Naxçıvan səfəri zamanı bədnam qonşularımıza və havadarlarına məhz Ermənistanın beş addımlığında Azərbaycanın son illər əldə etdiyi və indiyə kimi heç yerdə göstərilməyən ən müasir "Qasırğa" kompleksini nümayiş etdirməsi də sıradan bir addım deyildi. Bu, alqışlanası haldır. Qoy bizi istəməyən qüvvələr, Qarabağla bağlı məkrli planlar cızanlar ciddi-ciddi düşünüb-daşınsınlar". **Ü.Cəfərovun sözlərinə görə, ölkə başçısının hərbi sahə ilə bağlı səsləndirdiyi fikirlər o qənaəti formalaşdırır ki, 2017-ci il hərbçilər üçün bütün əvvəlki illərdən daha da çətin və mürəkkəb vəzifələrin həlli baxımından zəngin olacaq:** "Döyüş hazırlığının artırılması ilə bağlı təlimlərin həm miqyası, həm də tərkibi daha da mürəkkəbləşdiriləcək. İstənilən şəraitdə və vəziyyətdə verilən tapşırıqların yerinə yetirilməsi baxımından bu il hərbçilərimiz çox "tər tökməli" olacaqlar".

❑ **E.PAŞASOY**

### Korrupsiya ilə bağlı qalmaqallı məhkəmədə gözlənilməz dönüş

# Ev dustağı olan vitse-admiral bu gün qandallana bilər

## Prokuror Hərbi Dəniz Qüvvələrinin sabiq komandanı Şahin Sultanova 13 həbs cəzası istədi; 14 il Səfər Əbiyevin müavini olmuş vitse-admiralı nə gözləyir?




**Hərbi Dəniz Qüvvələrinin (HDQ) sabiq komandanı, vitse-admiral Şahin Sultanovun cinayət işi üzrə məhkəmə prosesi davam edib. Lent.az -ın məlumatına görə, Nəsimi Rayon Məhkəməsində keçirilən prosesdə məhkəmə istintaqı başa çatıb. Prokuror çıxış edərək Şahin Sultanovun 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Məhkəmə yanvarın 13-də davam edəcək.**

Qeyd edək ki, HDQ-də aparılan yoxlamalar zamanı qanun pozuntuları aşkar edilib. Aşkarlanmış qanun pozuntuları ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Qanunazidd əməlləri törətməkdə təqsirli bilinən bir neçə nəfər, eləcə də HDQ-nin sabiq komandanı, vitse-admiral Şahin Sultanov təqsirləndirilən şəxs qismində cəlb edilib. Onun barəsində həbs-qətimkan tədbiri seçilib. Ona Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə ittiham verilib.

Göyçay rayonunda anadan olan Ş.Sultanov 1999-cu ildə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı təyin edilmişdi. Ş.Sultanovun 2014-cü il aprel ayının 23-də həbs olunması mediada sabiq müdafiə naziri Səfər Əbiyevin də "başı üzərində" təhlükə kimi izah edilirdi. Çünki Ş.Sultanovla bərabər HDQ-nin bir neçə hərbi qulluqçusu saxlanılmışdı. Həbs edilənlər sırasında HHQ-nin sabiq qərargah rəisi Yunis Məmmədov, ərzaq xidmətinin rəisi, polkovnik-leytenant Hafiz Bauşev, birinci dərəcəli kapitan Qasım Quliyev, mülki şəxs Elxan Hacıyev və digərlərinin olduğu bildirilirdi.

Məlumata görə, HDQ-də gəmilərin təmiri üçün ayrılan vəsaitin düzgün istifadə olunmaması, istismar dövrünü başa vuraraq istifadədən çıxarılmış gəmilərin HDQ-nin döyüş sıralarında göstərilərək, saxlanılması üçün büdcədən əlavə vəsaitin götürülməsi, gəmilərin rənglənməsi üçün saxta sənədlərlə yüz tonlarla boyanın alınması, təmir işlərinin gəmi kapitanlarının hesabına aparılması, HDQ-yə məxsus bəzi yaşayış və iaşə sahələrinin saxta sənədlərlə ayrı-ayrı adamların adına özəlləşdirilməsi və s. kimi faktlar üzə çıxıb.

Həmin ilin oktyabr ayında vitse-admiralın həbs müddəti daha 3 ay uzadıldı. Amma bu müddət başa çatmamış, Bakı Hərbi Məhkəməsi dekabr ayının 25-də onun barəsində olan həbs-qətimkan ev dustaqlığı ilə əvəzlədi. Yeri gəlmişkən, Şahin Sultanov o zaman ilk nüfuzlu şəxs idi ki, belə bir qətimkan tədbirindən yararlanırdı *(İndi isə ləğv olunmuş MTN-in generalı olmuş Natəvan Mürvətova da ev dustağıdır-"YM").*

Vitse-admiral ev dustaqlığına buraxılandan sonra Fəxri Xiyabana gedərək mərhum prezident Heydər Əliyevin məzarını ziyarət etdikdən sonra çox ilginc açıqlamalar vermişdi.

"Mən bu gün ağ formanı ona görə geyindim ki, bu ağ formaya ləkə düşə bilməz. Mən necə vardım - təmiz, eləcə də qalacam. Hazırda irəli sürülən ittihamla bağlı iş gedir. Zaman gələcək hamısı aydın olacaq. Eyni zamanda mənim hərbi rütbəm məndən alınmayıb" - deyə, general bildirmişdi.

Şahin Sultanovun ev dustaqlığına buraxılmasına S.Əbiyev də qısa münasibət bildirərək "narahat olmayın, hər şey yaxşıdır. Heç bir problem yoxdur" deyərək, qısa münasibət bildirmişdi.

Vitse-admiralın vəkilləri isə bu həbsi əvvəl gündən sifarişli hesab ediblər.

Prokurorun vitse-admirala ağır cəza istəməsi onu göstərir ki, Ş.Sultanov cəzasını evdə deyil, həbsxanada çəkəcək. Son söz isə məhkəmənindir...

❑ **"YM"**

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017

# Milli Qəhrəmanla Slavyan Universiteti rəhbərliyi arasında qalmaqal

## Məhəmməd Həsənov universitet rəhbərliyinin göstərişi ilə içəri buraxılmadığını deyib; **BSU-nun prorektoru:** "Biz onun şəklini universitetdə lövhəyə vurmuşuq"




**Yanvarın 12-də mediada Bakı Slavyan Universitetinin adı növbəti qalmaqalda hallanıb. Belə ki, Azərbaycanın Milli Qəhrəmanı Məhəmməd Həsənov Bakı Slavyan Universitetinə gedib, lakin universitet rəhbərliyinin göstərişi ilə içəri buraxılmayıb. O, bu barədə modern.az saytına məlumat verib. Bakı Slavyan Universitetinə xoş niyyətlə getdiyini, lakin içəri buraxılmadığını açıqlayıb: "Neçə illərdir ki, Goranboy rayonunun Veyisli kənd orta məktəbində direktor işləyirəm.**

İstədim ki, universitetə gəlib uşaqlar üçün maraqlı nümunələr götürüm. Ona görə də vaxtilə təhsil aldığım universitetə baş çəkmək qərarına gəldim. İndiki Bakı Slavyan Universitetinə yollandım. Amma universitetə ayaq basan kimi xoşagəlməz mənzərə ilə rastlaşdım. Mühafizə xidməti universitet rəhbərliyinə məlumat versə də, məni içəri buraxmadılar. "Qəbul etməyin, çıxıb getsin" dedilər. Bu mənzərə mənə o qədər pis təsir etdi ki... Bilə-bilə ki, Milli Qəhrəmanam, bu universitetin məzunu olmuşam, mənimlə insafsızcasına rəftar etdilər".

Məhəmməd Həsənov universitetlə bağlı təhsil naziri Mikayıl Cabbarova şikayət edəcəyini deyib.

**"Yeni Müsavat" qəzeti olaraq məsələ ilə bağlı sözügedən universitetin prorektoru Əbülfəz Nağıyevlə əlaqə saxladıq. O bu hadisənin qalmaqal adlandırılması ilə razılaşmadı:** "Mətbuatda yazılır ki, Bakı Slavyan Universitetinin adı qalmaqalda hallanır. Burada qalmaqal olacaq nə var ki, siz ona qalmaqal deyirsiniz? Məhəmməd Həsənov mətbuata düzgün məlumat verməyib. Biz bununla bağlı təkzib vermişik".

**Əbülfəz Nağıyev Milli Qəhrəman adına hörmətlə yanaşdıqlarını və bütün söylənilənlərə rəğmən Məhəmməd Həsənov haqqında heç bir mənfi fikir söyləməyəcəklərini bildirdi:** "Biz Milli Qəhrəmanın şəklini də universitetdə lövhəyə vurmuşuq. Biz milli qəhrəmanlara böyük hörmətlə yanaşan insanlarıq. Onlar bizim fəxrimizdir. Biz onun haqqında heç vaxt pis fikir söyləmərik. Söyləsək də, bunu Allah yuxarıdan görür. Onun müraciətini mühafizə cavablandırıb. Ola bilər ki, cavab onun xoşuna gəlməyib və belə bir açıqlama verib".


Məhəmməd Həsənov

**Prorektor universitetə məxsus şəhər telefonlarının cavab verməməsinə də münasibət bildirdi:** "Bəzi saytlar isə qeyd ediblər ki, guya bizim universitetə zəng vurublar, ancaq borcla bağlı telefonlar işləməyib. Ona cavab olaraq da demək istəyirəm ki, biz artıq rəqəmsal nömrələrə keçmişik. Əvvəlki nömrələri qaytarıb, daha ucuz başa gələn nömrələr almışıq. "599"la başlayan 10 şəhər nömrəmiz var".

**Qeyd edək ki, Qəhrəman Məhəmməd Həsənovun universitetə buraxılmaması ilə bağlı yayılan xəbərlərə BSU-nun rektoru Nurlana Əliyevanın köməkçisi Murad Abidov da "qafqazinfo"ya açıqlamasında münasibət bildirib. O qeyd edib ki, rəhbərliyin bu məsələdən xəbəri yoxdur, çünki Məhəmməd Həsənov onunla görüşə gəlməyib:** "Mühafizəçi Məhəmməd Həsənovdan vəsiqə tələb edib, o isə vəsiqəni verməyib. Belə olan halda mühafizəçi prorektor Əbülfəz Nağıyevlə əlaqə saxlayıb. Məhəmməd Həsənova təklif edilib ki, universitetdən tanıdığı biri varsa, onunla bir yerdə universiteti gəzə bilər. Əgər yoxdursa, biz ona bir nəfər verə bilərik. Məhəmməd Həsənov isə bu təkliflərdən imtina edib və özü universiteti tək gəzmək istədiyini bildirərək oradan uzaqlaşıb".

❑ **Nərgiz LİFTİYEVA**




# Türkiyənin Təhsil Şurası: "Qafqaz Universitetinin diplomları tanınmasın"

**Türkiyənin Yüksək Təhsil Şurası bir sıra xarici ölkələrdə FETÖ-yə (Fətullahçı Terror Örgütü) bağlı olduğu iddia edilən universitetlərin diplomlarının tanınmamasına dair qərar verib. Virtualaz.org Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, bu sıraya Avstraliya və Polşadan 3, İraq, Albaniya və Kolumbiyadan 2, Türkmənistan, Qazaxıstan, Azərbaycan, İndoneziya, Belçika, Rumıniya, Qırğızıstan, Gürcüstan və Bosniya-Hersoqovinadan hərəsindən 1 olmaqla, universitetlər daxildir.**

Azərbaycandan bu siyahıya Qafqaz Universiteti daxil edilib. Şuranın qərarına əsasən universitetin 2016-cı ilə qədər məzunlarına verdikləri diplomlar, habelə 2015-2016-cı tədris ilinə qədər Qafqaz Universitetinə qəbul olunanların diplomları Türkiyə tərəfindən tanınmayacaq. Yalnız 2016-2017-cı tədris ili və bundan sonrakı illər üçün universitetə qəbul olunan tələbələrin diplomları tanınacaq. Yüksək Təhsil Şurası bunu onunla əsaslandırır ki, ötən il Azərbaycan hakimiyyəti FETÖ ilə mübarizə çərçivəsində Qafqaz Universitetinin rektorunu və professor-müəllim heyətini dəyişdirib.

# ADP ilə Ümidin 7 illik ittifaqı yenidən bərpa ediləcəkmi-sədrlər danışdı

## "Qarabağ" blokunun buraxılmasında Ümid Partiyası səbəbkar adlandırıldı; İqbal Ağazadə "heç kimlə düşmən deyilik" dedi


Sərdar Cəlaloğlu


İqbal Ağazadə

**2009-cu ildə ADP və Ümid Partiyası tərəfindən yaradılan və 2016-cı ilədək fəaliyyət göstərən "Qarabağ" blokunun bundan sonra bərpa edilib-edilməyəcəyi ilə bağlı ADP və Ümid Partiyasının sədrləri "Yeni Müsavat"a açıqlama verib.**

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, blokun adının necə olması formaldır. Ümid Partiyası ilə də, digər partiyalarla da "Qarabağ" adında blok, ittifaq yaratmaq olar. Əsas məsələ bloka zərurət olması, bütün tərəflərin belə bir blokun yaranmasını zəruri hesab etməsidir. Siyasətdə hər şey gündəmin, dövrün tələbi ilə bağlıdır. Əgər biz görsək ki, belə bir tələb var və ADP ilə Ümid Partiyasının bir blok yaratması zərurətə çevrilib, o zaman "Qarabağ" və ya başqa ad altında blok yarada bilərik. Amma indiki halda Azərbaycanda mövcud ictimai-siyasi vəziyyətdə Ümid Partiyası ilə ADP-nin "Qarabağ" bloku adı altında blok yartması üçün elə bir tələb yoxdur. Nə Demokrat Partiyasının üzvləri, nə də Ümid Partiyasının üzvləri tərəfindən belə bir şey arzulanır, nə bu barədə mənim, nə də İqbal Ağazadənin belə bir niyyəti var. Bu baxımdan, nəzəri olaraq blok yaratmaq mümkündür, amma praktiki olaraq bu işin başladılmasına zərurət yoxdur. Biz siyasətlə məşğuluq, ola bilər ki, sabah bir zərurət meydana çıxsın və yenidən Ümid Partiyası ilə fəaliyyətimizi əlaqələndirək, köhnə əməkdaşlığımızı bərpa edək. Yəni burada qeyri-adi, hansısa metofizik hadisə yoxdur. Siyasət reallıq elmidir. Reallıq nə tələb edir, ona uyğun da addımlarımızı atmalıyıq".

**"Qarabağ" blokunun fəaliyyətinə nə üçün xitam verildiyi barədə suala cavabında S.Cəlaloğlu dedi ki, blokun buraxılması Ümid Partiyasının 2015-ci il parlament seçkilərində "125-lər" adlı bir blokla əməkdaşlığa önəm verməsi ilə bağlı olub:** "2009-cu ilin martında keçirilən referendumla bağlı 6 partiyanın iştirakı ilə yaradılmış ""Qarabağ və Respublika" blokunun dağılmasından sonra elə həmin il "Qarabağ" siyasi bloku ADP və Ümid Partiyası tərəfindən yaradıldı. Referendumdan öncə Ümid Partiyasının üzvləri, sədri İqbal Ağazadə konstitusiyaya antidemokratik dəyişikliklərə qarşı çox aktiv mübarizə aparmışdılar, Ümid Partiyasının MSK-dakı təmsilçisi referendumun nəticələrini tanımamışdı. Referendumdan sonra "Qarabağ və Respublika" blokundakı bəzi dostlarımız Ümid Partiyasının qarşısında şərt qoydular ki, bu blokun saxlanması üçün İqbal Ağazadə deputat mandatından imtina eləməlidir. Bu yanlış şərtin yerinə yetirilməməsi blokun dağılması üçün bəhanə oldu. Bundan sonra biz qərara gəldik ki, Ümid Partiyası ilə fəaliyyətimizi davam etdirmək haqqında qərar qəbul eləək. Ümid Partiyası ilə "Qarabağ" blokunu təsis elədik. "Qarabağ" bloku 7 il ərzində fəaliyyət göstərdi. Heç bir konfliktsiz ittifaqda olduq, səmərəli fəaliyyət göstərdik. Birgə seçkilərdə iştirak elədik. 2015-ci ilin parlament seçkilərində Ümid Partiyası seçkiyə "Qarabağ" bloku ilə getmək yox, daha çox yeni yaratdıqları "125-lər" seçki bloku ilə bir yerdə fəaliyyət göstərmək, onlarla seçkiyə getmək niyyətini ortaya qoydu. Ümid Partiyası üçün "Qarabağ" blokunun artıq strateji əhəmiyyətinin qalmadığını gördük. Göründü ki, "Qarabağ" bloku ikinci plandadır, "125-lər" Ümid Partiyası üçün önəmlidir. Bundan sonra "Qarabağ" blokunun qalmasına zərurət görmədik".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə "Qarabağ" blokunun bərpa edilib-edilməyəcəyi barədə sualımıza cavabında dedi ki, siyasətdə heç bir şey haqqında "heç vaxt" demək mümkün deyil:** "Hər şey mümkündür. "Qarabağ" adı ilə və ya başqa ad ilə siyasi partiyaların bloklaşması məsələsində biz hər zaman açıq bir partiyayıq. Yetər ki, orada dövlətimizin, xalqımızın, demokratikləşmə maraqları üstün maraq təşkil etsin. "Qarabağ" bloku da mümkündür, başqa adla da blok yaratmaq mümkündür. ADP bizim dostlarımızın partiyasıdır. Eləcə də digər müxalif siyasi təşkilatları ilə də münasibətlərimizdəki kəm-kəsirə baxmayaraq istənilən halda-Azərbaycan məsələsi ilə bağlı bir arada olub birgə fəaliyyət sərgiləyə bilərik. Bu məsələdə bizim heç bir kompleksimiz yoxdur. Bu bir siyasətdir, daimi müttəfiqlər yoxdur, daimi maraqlar var. Amma heç bir halda heç kimlə düşmən olmayacağıq və düşmən deyilik".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017

**Birləşmiş Millətlər Təşkilatının (BMT) İsveçrədəki Cenevrə Ofisində Kipr probleminin həlli ilə bağlı danışıqların növbəti raundu bitmək üzrədir.**

# "Hər kəs Kipr məsələsində çözüm istəyir"

## Ufuk Turganer: "Cenevrədə nə baş verdiyindən xəbərsizik, bizə də hansısa məlumat gəlməyib"

BMT-nin nəzarəti altında aparılan müzakirələr üç gündür ki, davam edir. Türk və Yunan Kiprinin liderləri Mustafa Akıncı və Nikos Anastasiadisin iştirakı ilə keçirilən görüşlərdən sonra beştərəfli, yəni təminatçı ölkələr Türkiyə, Yunanıstan və İngiltərənin də iştirakı ilə beynəlxalq konfrans keçirilməsi planlaşdırılırdı. Konfransda BMT Təhlükəsizlik Şurası üzvləri ilə ehtiyac duyulacağı halda digər maraqlı tərəflərin nümayəndələrinin də iştirakı planlaşdırılıb. Bu mövzuda Quzey Kipr Türk Cümhuriyyətinin Azərbaycan nümayəndəsi Ufuk Turganerin münasibətini və gözləntilərini öyrənmək istədik. Məlum oldu ki, yeni ili vətənində qarşılayan Ufuk xanım hava şəraitinin pis olması səbəbindən Bakıya çox çətinliklə dönə bilib. İmkan düşmüşkən, xanım təmsilçidən digər mövzularla bağlı da suallarımıza cavab aldıq.



***- Ufuk xanım, Quzey Kiprdə Cenevrə danışıqlarının yekunlarından gözləntilər nədir?***

- İnsanlar nəhayət ki, bir çözüm olacağını ümidlə gözləyirlər. Bugünlərdə hər kəsin diqqəti, gözü, qulağı Cenevrəyə çevrilib. Hamılıqla gözləyirik. Baxaq, görək nə olacaq. Amma hər kəsin ümidləri çoxdur.

***- Bu dəfə ümidin yüksək olmasının səbəbi nədir?***

- Artıq hər kəs usandı və bir həll yolunun əldə olunmasını istəyir. Siyasətçilərin də, sadə insanların da fikri budur ki, xeyli müddətdir uzanan bu məsələnin həllini, nəhayət, bitirmək lazımdır.

***- Siz necə, rəsmi şəxs olaraq sadə insanların ümidini bölüşürsünüzmü?***

- Hazırda durum çox kritikdir, hələlik tərəflərin heç biri bəyanat vermir. Hər kəsin diqqəti Cenevrədədir ki, bu gün nə olacaq, hansı nəticəyə gələnəcək. Çünki bu beşli konfrans uzun zamandır istənilirdi və nəhayət, bu gün reallaşır. Arada zaman fərqi də var. Ona görə də nə baş verdiyindən xəbərsizik, bizə də hansısa məlumat gəlməyib. Türkiyə xarici işlər naziri də nümayəndə heyəti ilə dünən axşam oraya getdi. İnşallah, Kipr Türk tərəfi üçün də xeyirli-uğurlu olar.

***- Siz Quzey Kipri ötən ilin əvvəlində tərk etmişdiniz. Budəfəki gedişinizdə nələri müşahidə etdiniz, böhranlı vəziyyət kiprli türklərə nə qədər təsir edib?***

- Təbii ki, problemlər var, asan deyil. Orada da daxili çətinliklər var. Amma bu qədər problemlərə rəğmən yenə də Qzey Kipr Türk Cümhuriyyəti mövcud şərtlər daxilində ayaqda durmağa çalışır. Hökumətin göstərdiyi yardımlar, dəstək tədbirləri vətəndaşların durumunu müəyyən qədər yüngülləşdirir.

***- Deməli, Şimali Kipr Cənubi Kiprlə yola birgə davam etməyə hazırdır?***

- Təbii ki. Hər kəs Kipr məsələsində çözüm istəyir. Qarşıdakı dönəmdə nəticəni biləcəyik və həmin qərara uyğun hərəkət edəcəyik. İndi konkret bir söz söyləmək çox erkəndir.

***- Əsas məsələlərin razılaşdırıldığını demək olarmı?***

- Yox. Hələlik qəti bir söz deyə bilmərik. Qəti nəsə demək risklidir, bu, spekulyasiya olar.

***- Yəqin ki, Quzey Kipr mətbuatı üçün Cenevrə danışıqları əsasdır...***

- Şübhəsiz ki. Cenevrəyə böyük bir mətbuat ordusu gedib. Prezidentimiz, həmçinin baş nazrimiz, xarici işlər nazirimiz də ordadır. Danışıqları olduqca böyük bir heyət təqib edir. Gözləyirik, görək nəticə necə olacaq. Nəticə əldə olunandan sonra bir daha danışarıq.

***- Quzey Kiprdən Azərbaycan ünvanlı hansısa mesajlar, gözləntilər varmı?***

- Təbii ki, biz qardaş Azərbaycan dövlətindən daha çox dəstək gözləyirik. Hər zaman üçün mövqeyimiz belədir. Sanksiyalar ortadan qalxsa, şübhəsiz ki, hər iki ölkə üçün faydalı olar. İnşallah, o gün də gələcək.

***- Kiprli iş adamlarının Azərbaycanda iş qurmaq istəyi varmı?***

- Bu məsələ hər zaman gündəmdədir. Təbii ki, Azərbaycanda iş qurmaq istəyən vətəndaşlarımız, iş adamlarımız var. Amma bir az çəkinirlər. Burdakı vergilər, gömrük məsələsi necə olur deyə, suallar var. Kaş ki, Azərbaycanda işlər qurulaydı. Əvvəlki dönəmlərdə Quzey Kiprdən iş adamları bura gəlmişdi, burdan da oraya getmişdilər. Xatırlayıram, 2015-ci ilin sonlarında belə qarşılıqlı səfərlər olmuşdu. İş adamlarını araşdırmaq, dəyərləndirmək lazımdır.

***- Türk lirəsinin dollara nisbətdə daha da zəifləməsi Quzey Kiprə ciddi təsir edibmi?***

- Təbii ki, dolların, ingilis valyutasının dəyərinin yüksəlməsi bizə də təsir edir. Bizdə də kirələr-filan daha çox xarici valyuta ilə həyata keçirilir. Ona görə də dolların faizinin yüksəlməsi təsirsiz ötüşmür. Artıq 1 dollar 4 lirədən yuxarıdır.

***- Hava şəraiti səbəbindən ciddi problemlərlə üzləşmisiniz. Quzey Kiprdə də qar var idi?***

- Yox, bizdə qar yoxdur. Günəşli idi. Amma İstanbuldakı təyyarə havaya qalxa bilmədi, uçuşlar bir neçə dəfə ləğv edildi. Nəhayət, üçüncü günün təyyarəsi ilə uça bildik. Ancaq bu təyyarədə də qələbəlik var idi, bir dənə də boş yer qalmamışdı. Şükür ki, Bakıya yetişə bildik...

❑ **Elşad PAŞASOY**

# Tehran Qərblə barışığın bəhrəsini görür

## "Airbus" ilk təyyarəni İran şirkətinə təhvil verdi; bu ölkə hansı səbəbdən Avropa şirkətləri üçün yatırım cənnətinə çevrilib?



**İran Qərblə anlaşmanın ilk "meyvələrini dərir". İran hökumətinin "Airbus" firması ilə bağladığı sərnişin təyyarəsi alınması müqaviləsi çərçivəsində birinci uçaq artıq Tehrana göndərilib. "Euronews" telekanalının məlumatına görə, Fransanın Tuluza şəhərində keçirilən mərasimdə 189 yerlik A321 model "Airbus" təyyarəsi "İran Air" şirkətinin prezidenti Fərhad Pərvərişə təhvil verilib. Təyyarənin üzərinə şirkətin emblemi vurulub.**

Qeyd edək ki, İran və ABŞ başda olmaqla, "altılıq" ölkələri arasında əldə olunmuş nüvə razılaşmasına əsasən, İslam Respublikasına qarşı sanksiyalar götürülüb. Və bundan sonra İran dünyanın iki ən məşhur təyyarə istehsalı firmaları olan "Airbus" və "Boeng"lə sifariş müqaviləsi imzalayıb. Müqaviləyə əsasən İran hökuməti "Airbus"dan 100, "Boeng"dən isə 80 ədəd sərnişin təyyarəsi alacaq.

"Airbus"un baş direktoru Fabies Berjier Tuluzadakı təhvil-təslim mərasimində deyib ki, anlaşmaya daxil olan digər təyyarələr yaxın zamanlarda İrana təhvil veriləcək. Qeyd edək ki, bu anlaşmaya əsasən təyyarələrin qiyməti İranın embarqo zamanı Qərb banklarında dondurulmuş hesablarından ödəniləcək. Yəni Qərb İrana nağd pul geri verməyəcək, İran isə 30 ildən çoxdur köklü şəkildə yenilənməyən aviaparkını yeniləyəcək.

Qeyd edək ki, bu anlaşma ötən ilin yanvarında İran prezidentinin Fransaya səfəri zamanı əldə olunub. Anlaşmaya əsasən, İran 20 milyard dollar dəyərində 100 ədəd sərnişin təyyarəsi alacaq.

Bundan başqa, İran dünyanın digər məşhur nəqliyyat təyyarəsi brendi olan "Boeng" firması ilə anlaşma imzalayıb. 16,6 milyard dollarlıq anlaşmaya əsasən ABŞ-ın nəhəng təyyarə korporasiyası İrana 80 sərnişin təyyarəsi satacaq.

Qeyd edək ki, bu hadisə İranda İslam inqilabından sonra Qərblə ilk böyük anlaşmadır. Məhz inqilabdan az sonra İranda ABŞ səfirliyi hücuma məruz qalaraq işçiləri girov götürülmüş və bundan sonra ABŞ başda olmaqla, dünyanın bir sıra ölkələri İrana qarşı embarqo tətbiq edib. Bu səbəbdən də İrana o tarixdən sonra Qərbdən təyyarə satılmayıb. Nəticədə İran aviasiya parkı köhnəlib və hətta ehtiyat hissələrini qara bazardan baha qiymətə almağa məcbur olub. Nəticədə İranda aviaqəzaların sayı artıb. Son 37 ildə 200-dən çox təyyarə qəzaları baş verib.

Yalnız Həsən Ruhani hakimiyyətə gəldikdən sonra Qərblə danışıqlar bərpa olunub və nüvə anlaşmasından sonra Qərb konsernlərinin qapıları İslam Respublikasının üzünə açılıb. Bu prosesdən ən çox razı qalan isə Avropa şirkətləridir. Çünki İran kimi güclü iqtisadiyyatı, neft-qaz ehtiyatları olan 80 milyonluq bazar Avropa üçün hər zaman cəlbedici olub.

İranın digər üstünlüyü isə digər Yaxın Şərq ölkələrinin əksəriyyətindən fərqli olaraq İranda sabitlik və iqtisadi inkişaf olmasıdır; burada yatırım üçün əlverişli imkanlar yaradılıb. Məhkəmə sistemi, xarici biznes üçün münasib şərtlər formalaşdırılıb. Üstəlik, farslar Avropanın alman və fransızlar kimi köklü xalqları ilə dərin bağlara malikdirlər, bir toplum olaraq qəbul olunurlar. Bu səbəbdən də İrana qarşı embarqoların götürülməsi Avropanın aparıcı ölkələrinin diqqətini çəkib. Avropanın 100 ən böyük şirkəti İrana yatırım qoymaqla bağlı istəklərini elan edib, buraya nümayəndə göndəriblər. Əgər builki seçkilərdə Həsən Ruhani yenidən seçilsə və Qərbin, xüsusən də ABŞ-ın İranla bağlı siyasi kursu dəyişməsə, İranın Qərb şirkətləri ilə əməkdaşlığı, yatırım qoyulması prosesi sürətlənəcək.

İranın, məsələn, qonşu Türkiyə ilə müqayisədə daha sabit ölkə olması, terrorun bu ölkəyə ayaq açmaması yalnız İran xüsusi xidmətlərinin fəallığı ilə bağlı deyil. Bu amil olsa da, daha mühüm faktor İranın müharibə "cəbhəsini" Suriyada aparmasıdır. Yəni savaş İran sərhədlərində deyil, Tehran məhz bu səbəbdən ilk günlərdən Suriya savaşına qatılaraq Yaxın Şərqdə dağıdıcı müharibənin öz sərhədlərinə gəlib çatmamış onunla müharibəyə başladı. Bunu İranın bəzi rəsmiləri də etiraf edibələr. Bir neçə gün əvvəl də İranın Ali dini lideri Suriyaya dəstək verməsələr, bu gün Tehranda savaşmalı olacaqlarını bildirib. İran savaşa Suriya torpaqlarında qatılıb və itkilərini də Suriyada verir, ancaq buna görə də düşmənləri sərhədlərin içərisinə buraxmayıb. Oxşar taktikanı ruslar da etdilər, növbəti terror müharibəsinin Rusiya ərazisinə sıçramasının qarşısını almaq üçün Suriyada Qərbə və onun dəstək qüvvələrinə qarşı savaşa girdilər.

Türkiyənin isə bu şəkildə manevr etmək imkanı olmadı. Çünki savaş birbaşa sərhədlərdə başladı, Türkiyə istər-istəməz Suriya münaqişəsinin əsas oyunçusuna çevrildi. Təbii ki, burada hökumətin müəyyən yanlış hesablamaları, dövrün ictimai-siyasi şərtlərinin də təsiri ilə Ankara Suriya münaqişəsinin içərisində yer aldı, Suriyada müxalifləri dəstəkləyən Qərb və ərəb ölkələri Suriyaya dəstəyi Türkiyə üzərindən etdilər ki, bu da son nəticədə Türkiyə üçün hazırkı başağrılı vəziyyəti yaratdı.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017



# Məsləhət kimi

Zamin HACI
zaminhaci@gmail.com

**Hökumət iki il devalvasiya deviylə süpürləşəndən sonra, nəhayət, qərara gəldi manatın başını buraxsın. Daha banklara "dolları bu qiymət sat, o qiymətə al" söhbətləri ləğv edilmişdir. İndi banklar özləri bir növ qara bazar olacaqdır. Neçəyə istəsələr alıb-satacaqlar. Əsl azad bazar yaranır. Dəstəkləyirik. Vəhşilik var idi, indi kapitalizm də üstünə gəlsə bəlkə vəhşi kapitalizm qurduq. Yoxsa indikinə baxanda bilmirdin hansı quruluşda yaşayırsan. Rəhbər heyətə və Nazirlər Kabinetinin tərkibinə baxanda adam fikirləşirdi, deyəsən, bizdə hələ sovet hökumətidir. Xalqa baxanda qədim Misirdə ehramların tikintisində işləyənlər yada düşürdü. Bakıya baxanda elə bilirdin indicə Jukov qələbə paradını qəbul edəcək, ölkənin qərbinə baxanda isə "Nuşirəvan və bayquşların söhbəti" əsərini yada salırdın. Hərə bir yandan oğurladığı üçün kleptokratiya da - oğruların hakimiyyəti - deyirdilər. Bunu "Vaşinqton Post" qəzeti yazmışdı, indi əcəb oldu, özləri həmin vəziyyətə gəlirlər, Trampın prezidentliyini yaşayıb bizim günümüzə düşərlər, inşallah. Ancaq tema bu deyildir.**

Bu aradakı müddət manata üzməyi öyrətmək üçün sərf olundu, məşqçi də, maşallah, Elman müəllim olduğu üçün indi milli valyutamızı olimpiadaya buraxsan Maykl Felpsi boğar. Manat hazırda çox gözəl üzür. Heç batmır. Düzdür, bəzi xaricdən maliyyələşən qara qüvvələrin rəyinə görə manatın hazırda böhran dənizinin bulanıq dalğaları üzərində serfinq yapması onun çəkisizliyi ilə bağlıdır. Yəni manat elə zəif, ölüvay valyutaya dönüb ki, artıq onu batırmaq mümkün deyildir. Saman çöpü də batmır, misal üçün. *(Burda suda batmayan başqa maddələr də ağlıma gəldi, ancaq yazmıram, məqaləmizin içindən pis iy gələr)*. Biz o ekspertlərə inanmırıq. Ehsan müəllim demişkən, aldıqları nəfəs də yalandır bəzi adamların. Doğru nəfəs üçün hərdən bulvarda gəzişmək zəruridir.

Sözgəlişi, nəfəs almaq qripə yoluxma riskini artırır, çalışın bu aralar nəfəs almayın. Bu məlumatı Səhiyyə Nazirliyi yayıbdır. Nazirliyin baş epidemioloqu İbadulla Ağayev deyib ki, balkonda siqaret çəkməyin, qonağı ötürəndə nazik paltarla küçəyə çıxmayın. *(Bəs nə oldu, Səhiyyə Nazirliyi siqaretin ümumiyyətlə səhhətə ziyan olduğunu qutuların üzərində bəyan edirdi? Bunu necə anlayaq? Bəlkə birinin qonağı gəlmir, o nə etsin?)*

Sağ olsunlar. Böyük irəliləyişdir. Camaat iki aydır qrılır, nazirlik isə öncə ümumiyyətlə qripi inkar edirdi. Sonra dedilər düzdür, burnu axanlar var, ancaq soyuqdəymədir, qrip deyil. İndi nəhayət, deyiblər qripdir. Yaya qədər nazirlik məsələni tam müəyyən edər, inşallah. Bəlkə də məlum olacaq üstümüzdən ebola, Sibir xorası, nə bilim, taun epidemiyası keçib, bilməmişik. Ümid edək səhvən kiminsə burnunu kəsib qulağına tikməzlər. Qulaqdan nəfəs almaq bir az çətindir axı. Yox, əgər mütləq burun kəsilməlidirsə heç olmazsa göbəyimizə tiksinlər, isti qalsın.

Ümumiyyətlə, atalarımız demişkən, məsləhətli don gen olar. Keçən il işıqpulu qalxanda hörmətli iqtisadçı ekspertimiz Qubad İbadoğlu xalqa dəyərli məsləhət verdi, dedi, indən belə telefonu enerji ilə kompüterdən doldurun. Nə sirdirsə, o vaxtdan bəri mənim telefonum ancaq kompüterdən enerji yığır. Möcüzədir. Qubad müəllim bir də demişdi ki, evdə bir gözünüzü lentlə bağlayın, o zaman işıq pulu az yazır.

Belə məsləhətlər mənə adətən bir anekdotu xatırladır. Bir yoxsul gəlir həkimə, həkim buna dərman yazır, deyir gündə 3 dəfə yeməkdən sonra atarsan. Adam deyir, həkim, çox sağ ol, bəs bu gündə 3 dəfə yeməyi hardan tapım?

Yeri gəlmişkən, uca millətimiz də belə quru-quru məsləhətlərin əslində gülünc olduğunu yaxşı dərk etdiyi üçün adətən kiməsə nəsə öyrədəndə "Məsləhət vermək kimi olmasın..." girişiylə başlayır. Bu, şüuraltı olaraq məsləhətə etirazdır.

Yazımı isə tələbəlik dostum, gözəl insan Məsləhət bəyə - əbədi kafedra müdirimiz Məsi müəllimə ithaf edirəm. Çox yaşa, bəy.

# Azərbaycanın yeni hərbi doktrinası gündəmi dəyişir




# "Qarabağda müharibə qaçılmaz olacaq..." - Rusiyanın nüfuzlu nəşri

## Azərbaycanın öz hərbi qüdrətini durmadan artırması və prezident İlham Əliyevin son xəbərdarlıqları xarici medianın diqqətində; **Londondakı analitik mərkəzin eksperti:** "Bakı və Moskva anlaşsa, Ermənistan zorla sülhə məcbur ediləcək..."

**Dağlıq Qarabağ probleminin həll olunmamış qalması sövq-təbii Azərbaycanı - ərazisinin 20% -i işğala məruz qalan ölkəni öz hərbi qüdrətini artırmaq zorunda qoyur. Prezident İlham Əliyevin bu xüsusda Nazirlər Kabinetinin son toplantısında söylədikləri təcavüzkar Ermənistana və onun havadarlarına xəbərdarlıq sayıla bilər. Bu, həm də onun anonsudur ki, müharibə hələ bitməyib, Bakı işğal rejimi ilə sonsuzadək barışmaq niyyətində deyil və işğalçı tərəf ərazilərin geri qaytarılması haqda ciddi düşünməlidir.**

**Prezidentin bu mövzuda fikirləri xarici medianın da diqqətini çəkib. Məsələn, Rusiyada nəşr olunan nüfuzlu "Nezavisimaya Qazeta" yazır:** "Azərbaycan öz hərbi potensialını artırmaq üçün əlavə tədbirlər görür. Bu il hərbi xərclər artırılacaq. Bu barədə prezident İlham Əliyev bəyan edib. Dövlət başçısı bildirib ki, ölkə müharibə vəziyyətindədir və böhrana, neftin qiymətinin düşməsinə baxmayaraq, ordu müasir silah-sursat və hərbi texnika ilə təmin edilir. Bakı hərbi qüdrətini artırmaqdan imtina etməyəcək. Cari ildə müdafiə və milli təhlükəsizliyə ünvanlı büdcə xərcləri ötən illə müqayisədə 167 milyon manat və ya 6.9% artıb və 2.9 milyard manat təşkil edəcək. Bu - təxminən 1.8 milyard dollardır".

**Nəşrin yazdığına görə, bu vəsaitlərin sanballı hissəsi yeni silahlar və hərbi texnikanın alınmasına sərf olunacaq:** "Bu barədə İlham Əliyev Nazirlər Kabinetinin toplantısında bildirdi. "Bu gün Azərbaycan ordusu həm döyüş qabiliyyəti, həm də texniki təchizat baxımından dünyanın güclü orduları siyahısına daxildir" - Əliyev bildirdi. Prezident onu da dedi ki, Bakı yüksək dəqiqliyə və dağıdıcılığa malik ən müasir silahlara malikdir. "Onların bir hissəsi nümayiş etdirilib, digər hissəsi isə yox. Onlar lazım olan vaxtda və yerdə nümayiş etdiriləcək"".

**Qəzet daha sonra İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın hərbi büdcəsinin artmağa başlamasına diqqət yönəldərək qeyd edir:** "Nüfuzlu hərbi nəşrlərin statistik məlumatlarına görə, 2003-2007 və 2008-2012-ci illərdə Şərqi Avropa ölkələri tərəfindən hərbi təyinatlı məhsulların idxalı 21% artıb. Bu da əsasən Azərbaycanın hesabına baş verib. Azərbaycan regionun yeganə ölkəsi olub ki, hərbi idxalı 155% artıraraq, dünya idxalçılarının siyahısında 48-ci yerdən 35-ci yerə qalxıb. Bakının hərbi texnika, ölümcül silahlar və reaktiv qurğular aldığı ilk beşlik ölkələr Rusiya, İsrail, Pakistan, Ukrayna və Türkiyədir. Bu yaxınlarda İsrail baş naziri Benyamin Netanyahunun Bakı səfəri zamanı bəyan edildi ki, Azərbaycan İsraildən 5 milyard dollar həcmində silah alıb. Rusiya ilə önceki illər ərzində silah dövriyyəsi də təxminən eyni həcmdə olub. İsraillə Azərbaycan arasında imzalanan son kontraktlardan biri isə "Dəmir günbəz" raketdən müdafiə sistemidir. Bunlarla yanaşı, ölkənin Hərbi Sənaye Nazirliyi də silahlı qüvvələri müasir hərb məhsullarla uğurla təmin edir. Bu yaxınlarda nazir Yavər Camalov jurnalistlərə bildirib ki, artıq "Zərbə" pilotsuz uçan aparatlar və kəşfiyyat-müşahidə aparatları uğurla sınaqdan çıxarılıb. Bu silahların istehsalı qurumun müəssisələrində qısa müddətdə təşkil edilib. Nazirin sözlərinə görə, yaxın zamanlarda onların kütləvi istehsalına başlanacaq".

**Rusiya nəşri sonda rəsmi Bakının ölkənin müdafiə qabiliyyətini möhkəmlənməsi və öz hərbi potensialını artırmağa bunca böyük vəsaitlər ayırmasını həll olunmamış Dağlıq Qarabağ konflikti ilə əlaqələndirib.** "Ekspertlərə görə, bu problem öz həllini tapmayınca, Azərbaycan öz silahlı qüvvələrini gücləndirmək zorunda qalacaq və əgər sülh danışıqları gözlənilən nəticələri verməzsə, Bakı işğal altındakı əraziləri hərbi yolla azad eləmək hüququnu özündə saxlayır", - deyə nəşr əlavə edib.

***

**Danışıqlar səmərə verməzsə, yeni müharibənin mümkünlüyü məsələsi analitik mərkəzlərdə də ciddi təhlil mövzusudur. Londondakı "Janes İntelligence" analitik mərkəzinin müdafiə və təhlükəsizlik məsələləri üzrə aparıcı eksperti Lilit Gevorqyan bu xüsusda hərbi əməliyyatların bərpasını yüksək ehtimallı hesab edir.**

"Əgər Moskva və Bakı razılığa gəlsə, erməni ictimaiyyəti isə bu anlaşmaya qarşı olsa, o zaman mümkündür ki, Qarabağ münaqişəsinin həlli məcburi qaydada olsun - yeni sürətli və daha qanlı hücum hesabına reallaşsın. Əlbəttə ki, Bakı bunu Moskvanın rüsxəti ilə edəcək. Bu isə problemin paket həll tərəfdarı olan ermənilər üçün əsas olacaq ki, cəmiyyəti inandırsınlar ki, Ermənistan "DQR"i hazırkı sərhədlər daxilində saxlamaq iqtidarında deyil", - deyə erməni ekspert 1 in.am saytına müsahibəsində qeyd edib.

**Onun sözlərinə görə, Dağlıq Qarabağ nizamlanmasında erməni tərəfi yeni baxışa, azad seçkilər nəticəsində formalaşan və Rusiyaya müqavimət göstərə biləcək hakimiyyətə ehtiyac duyur.** "Əfsus ki, 2017-ci ildə Ermənistanın müstəqil dövlət olaraq səlahiyyətləri zəifləməkdə davam edəcək. Rusiyanın ona təsirləri isə artacaq. Ermənistan iqtisadi və milli təhlükəsizlik baxımından daha həssas olacaq" - Gevorkyan əlavə edib.

Məsələ də ondadır ki, işğalçı Ermənistan ildən-ilə Qarabağla bağlı söz sahibliyini bir az daha itirir. Bu isə o anlama gəlir ki, əgər doğrudan da Bakı və Moskva öz aralarında anlaşsa, Ermənistan zorla sülhə məcbur edilə bilər. Bu - iki yolla mümkündür: ya dinc yol seçiləcək, ya da Rusiya müqavimət göstərəcəyi təqdirdə işğalçını cəzalandırmaq üçün Bakıya mane olmayacaq.

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017

**2017-ci il Dağlıq Qarabağ münaqişəsinin həll perspektivi baxımından nə vəd edir? Bölgədə və dünyada gedən proseslər, Donald Trampın ABŞ-ın yeni prezidenti qismində fəaliyyətə başlaması və ABŞ-Rusiya münasibətlərinin xarakteri konfliktin nizamlanmasına müsbət təsirlər göstərəcəkmi? Bəs müharibə riski, sülh imkanları ilə müqayisədə necə olacaq? Dağlıq Qarabağ mövzusunda siyasi təhlilçiləri indi ən çox düşündürən suallar əsasən bunlardır desək, yanılmarıq.**



# Sülh danışıqlarında sıçrayışlı dönüş... olacaqmı?

## Hərb, yoxsa sülh dilemması təzədən gündəmə qayıdır; önümüzdəki aylar hərbi əməliyyatların bərpası baxımından kritik dönəm olacaq; **hərbi ekspert:** "Vəziyyət belə davam eləsə, hər şey baş verə bilər..."

İl təzə başlasa da, hələ ki sülh danışıqlarında pozitiv dinamika gözə dəymir. Ermənistanın parlament seçkiləri kampaniyasına girməsi də danışıqların "donunun açılmasına" başqa yandan əngəl yaradır. Bir şey dəqiqdir ki, nizamlama prosesinin bu il də dalanda qalması, XİN başçıları və prezidentlər səviyyəsində görüşlərin uzun müddət reallaşmaması müharibə ehtimalını gücləndirəcək.

Yeni, genişmiqyaslı hərbi əməliyyatlar isə konfliktə cəlb olunmuş qlobal güclərin heç birinə sərf eləmir. Bu üzdən ehtimal eləmək olar ki, həmin güclər (Rusiya, Qərb) heç olmasa, savaş ehtimalını sıfırlamaq üçün müəyyən minimum addımlar atmaq zorunda qalacaq. Söhbət problemin həllində sıçrayışlı dönüşdən gedir. 2017-ci ildə, nəhayət, bunun şahidi olacağıqmı? Hələlik bu yöndə ümidverici məqamlar elə də çox deyil. ATƏT-in Minsk Qrupunun köhnə-yeni həmsədrlərinin də nə vaxt hərəkətə keçəcəyi bəlli deyil.

Bu arada ATƏT-in yeni icraçı katibi, Avstriyanın xarici işlər naziri Sebastian Kurz ATƏT məkanında münaqişə zonaları ilə bağlı fikirlərini bildirib. Onun sözlərinə görə, ATƏT regionunda davam edən münaqişələrin hərbi yolla həlli yoxdur. Bu sözləri o, ATƏT Daimi Şurasında Avstriya sədrliyinin prioritetlərini açıqlayarkən deyib. Nazir qeyd edib ki, münaqişələrin siyasi yolla həllinə nail olmaq üçün daha çox dialoqa ehtiyac var. Kurz münaqişələrlə yanaşı, ATƏT məkanında terrorizm və radikalizmin təhlükəsizliyə böyük təhdid olduğunu, buna qarşı mübarizənin gücləndirilməsinin vacibliyini də vurğulayıb.

***

Lakin heç şübhəsiz ki, sülh ləngidikcə, müharibə ehtimalı da artacaq. Çünki istənilən sülhün alternativi müharibədir. Ötən ilin aprelində təmas xəttində baş verən məlum hadisələr buna şübhə yeri qoymadı. Yeni gəlmişkən, apreldəki 4 günlük müharibə Ermənistanın ordusu ilə bərabər, iqtidarını da çətin vəziyyətə salıb. 4 gün davam edən savaşda silahlı qüvvələrimiz tərəfindən düşmən ordusuna layiqli cavab verilib.

Ekspertlərə görə, bu savaşdan sonra Azərbaycan ordusu uzun illərdən sonra Ermənistan tərəfindən yaradılmış məğlubedilməzlik mifini tamamilə darmadağın edib. Ordu hər an müharibəyə hazır vəziyyətdə olan psixoloji durumdadır. Lakin hələ ki Azərbaycan işğalda olan torpaqlarını sülh yolu ilə azad etmək yolunu tutub. İşğalçı Ermənistan isə hər zamankı kimi müxtəlif bəhanələrlə Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi prosesindən boyun qaçırmaqda davam edir.

**Bundan əlavə, prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı Qarabağ məsələsinə də toxunaraq bildirib ki, Azərbaycan mövcud status-kvo vəziyyəti ilə heç zaman barışmayacaq.** "Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər. Biz bunu çoxdan bilirdik", - deyə prezident qeyd edib.

**Bəs vəziyyətin inkişafı nə vəd edir, hərbi əməliyyatlar təzədən bərpa oluna bilərmi? Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, proseslər bu cür davam edəcəksə hər şey baş verə bilər:** "Çünki 2016-cı ilin aprelindən bəri Azərbaycanın gözləntiləri özünü tam olaraq doğrultmadı. Beynəlxalq qurumlar, xüsusilə də rəsmi Moskvanın Ermənistana heç bir təsir göstərməməsi, əksinə, onu silahlandırması deməyə əsas verir ki, cəbhə bölgəsinin istənilən nöqtəsində gərginlik baş verə bilər. Necə ki, dekabrın sonlarında Ermənistan tərəfinin təxribatının şahidi olduq. Tovuz istiqamətində yaşananlar onu deməyə əsas verir ki, artıq istənilən nöqtədə bu gərginlik yaşana bilər. Hətta istisna etmirəm ki, düşmənin həyasızlığı o səviyyəyə çata bilər ki, prezidentin də səfər etdiyi Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun nəzarət etdiyi müdafiə zolağında da müəyyən gərginliklər yaşansın. Prezident Nazirlər Kabinetinin iclasında düşmənə və onun havadarlarına artıq mesaj verdi ki, vaxtı uzatmağın mənası yoxdur. Bildirildi ki, Azərbaycan tərəfi kifayət qədər ciddi silahlar alıb. Hesab edirəm ki, bütün parametrlər üzrə Azərbaycanın əldə etdiyi silah-sursatlar müasir olduğu üçün, düşmənin sahib olduğu silah-sursatdan qat-qat güclüdür və yüksək iş qabiliyyəti var. Güclü silahlarımız çoxdur və onlardan lazım olduğu zaman, müvafiq yerdə istifadə edəcəyik".



**Ekspert bu il də aprel hadisələrinin təkrarını mümkün hesab edir:** "Azərbaycan beynəlxalq qurumlara bir daha bəyan edir ki, status-kvonun dəyişməməsi Azərbaycanı razı salmır. Bu, dəyişilməlidir və Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Azərbaycan prezidentinin, müdafiə nazirinin açıqlamaları onu deməyə əsas verir ki, vəziyyət belə davam edəcəyi təqdirdə Azərbaycan bütün mümkün variantlardan, ən əsası da güc amilindən istifadə edəcək. Prezident bir həftə məsələsini deməklə də məhz Ermənistana eşitdirdi ki, Rusiya və digər xarici güclərə arxayın olmasınlar. Onları kimsə müdafiə edəcəksə, Azərbaycana da öz ərazi bütövlüyünü təmin etmək üçün hüquqi haqqı verən sənəd, BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsidir. Heç kimdən icazə alan deyilik və kifayət qədər səbir nümayiş etdirmişik".

**Ermənistanın da ötən ildən etibarən hərbi hazırlıq səviyyəsini müəyyən qədər artırmasını nəzərə aldıqda bu il yaz savaşı başlarsa, bunun nəticələri barədə ekspert aşağıdakıları söyləyib:** "Əvvəla, onu qeyd etmək lazımdır ki, ötən ilin aprel ayında heç tam şəkildə döyüşlər də olmayıb. Biz onu döyüş kimi təqdim etsək də, əslində vəziyyət başqa idi. Belə ki, biz düşmənin təxribatının qarşısını alıb, öz xüsusi təyinatlılarımızı xilas etmək əməliyyatı həyata keçirmişik. Proseslərə də demək olar ki, hərb dil ilə desək, bütün qoşun növləri cəlb olunmamışdı. Yeni müharibənin öz qaydaları var. Artilleriya hazırlığı, döyüş vertolyotları, sonra isə piyadanın və texnikanın hərəkəti olmalıdır. Apreldə biz, heç bir böyük güc tətbiq etmədən, şəxsi heyətin cüzi hissəsini proseslərə cəlb etmişdik. Bütün bunlara baxmayaraq, sözsüz ki, ötən il ərzində Ermənistan da boş dayanmayıb. Xüsusilə də yaxın işğal olmuş ərazilərdə xeyli silah-sursat toplayıblar. Müharibə başlayacağı təqdirdə bizim də itkilərimizin olacağı mümkündür və olacaq. Müharibə qanunlarına görə hücum edən tərəf daha çox itkilər verir. Hər şey komandirlərin bilik və bacarığından asılıdır. Azərbaycan Müdafiə Nazirliyi, silahlı qüvvələrimizin bütün qoşun növləri bilirlər ki, düşmən apreldə gözləmədiyi halda Azərbaycan əsgərinin gücünü gördü. Ona görə də ötən aylar ərzində kifayət qədər savaşa hazırlaşıblar. Biz haqq uğrunda döyüş aparacağıq. Ermənilərin isə nə uğrunda döyüş aparacaqları anlaşılmır. Hər gün ermənilərin ziyanına işləyir. Əsgərləri bizim işğal olunmuş ərazilərimizdə həyatlarını itirirlərsə, sabah Ermənistan əsgər anaları bunun hesabını hökumətindən soracaq".

**Artıq erməni toplumunda bununla bağlı narazılıqlar açıq xarakter almaqdadır. Getdikcə daha çox sadə erməni öz övladının kriminal Sərkisyan rejiminin hakimiyyət maraqlarının güdazına vermək, orduya, işğal altındakı Azərbaycan ərazilərinə gpndərmək istəmir. Bakıda ötən ilin noyabrında narazı ermənilərin iştirakı ilə keçirilən sülh konfransı və onun ardınca imzalanan Bakı Sülh Platforması, bu platformaya qoşulan ermənilərin sayının getdikcə artması da eyni tendensiyadan xəbər verir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017



# Ag Evdə tək - Trampın portret ştrixləri - Həmid Herisçi

## Vaxtilə "Evdə tək"də epizodik rolda oynayan Amerika prezidenti üçün əsl film indi başlayır...

**Yadımdadır, Hillari Klintonla Donald Tramp arasındakı seçki marafonunu canlı şəkildə izləmək üçün Bakıdakı ABŞ səfirliyi "Hyatt Regense" hotelində hər cür... inanın, hər cür şərait yaratmışdı. İçəridə toxdayıb özümə gələn vaxt gördüm kənarda Donald Trampın karton müqəvvası bayaqdan intizarla yolumu, salamımı gözləməkdədir.**

Trampla yanaşı durmaq, bəri başdan deyirəm, çoxlarına sərf deyil. Əvvəla, boyda fərqlər anında üzə çıxıb, səni gülməli vəziyyətə salacaq. İkincisi, ən vacibi, deyəsən, burda Tramp aşiqləri sayca azlıqda idi...

Məclisdə özümdən başqa tumluq bir Trampərəst aşkarlamadığım üçün gedib dayanıram "FOX NEW" monitoru tərəfdə. Burda, vallah kimsə yoxdur. Azərbaycan müxalifəti yekdilliklə Hillari Klinton ətrafında sıx birləşərək saat 10:00-u səbirsizliklə gözləyirdi. Bu vaxt, səfir Robert Sekuta, əlində sıxdığı boş qədəhi, nəhayət, süfrəyə qaytardı. Səhnəyə cəld sıçrayıb ordan seçki qalibini elan edəcək guya.

Ortada Milad bayramı havası əsirdi elə bil. Hillari, deyəsən, "Qar qız"idı, Tramp isə Şaxta baba...

Qəfil, havada ildırım çaxdı elə bil. Robert Sekutanın ətrafından müxalifətçilər silinib hakim iqtidar komandası-Səməd Seyidov, Asim Mollazadə, Fuad Muradovla əvəzləndi bir göz qırpımında. Səfir Sekuta, anında, "uf" belə demədən, ətrafındakı fəxri müxalifət qarovulunu başqası-iqtidar keşikçiləri ilə əvəzləyib başladı telekameralara gülümsəməyə.

***

Donald Tramp öz saysız qəribəliklərini başqalarına sevdirməsə, fərdi-fərqli cəhətlərini ictimailəşdirməsə, görəcəksiz, gecələr yata bilməyəcək. Tramp, əslinə qalsa, həqiqətən az yatır-cəmi dördcə saat bəsdir ki, gözünün acısını alsın. Səhər obaşdan durdumu, gedəcək qolf oynamağa. Başı ağ şapkalıdısa, demək, ovqatı əladır. Zordur... Belə vaxtlar o adətən çox mülayim, səxavətlidir. Cəmiyyətə tam açıqdır.

Ancaq bu açıq səma, bir göz qırpımında buludlu havayla əvəzlənə bilər. Azərbaycan siyasi elitasını bəri başdan xəbərdar edirəm ki, Trampla təmaslar zamanı bunu qulaqlarına sırğa edib assınlar. Trampın qara şapkalı vaxtında nəbadə...nəbadə onunla oynamaq, danışmaq azarına düşəsiz haaa... İctimai-siyasi, şou-biznes aləmlərinə kobud müdaxiləri də onun ancaq...ancaq bax bu psixoloji kompleksi ilə-fərdiliyini ictimailəşdirmək azarı ilə ələqədardır. Psixoterapevtika elmində buna "nərgiz kompleksi" deyilir, unutmayasız. Bələri, möhkəmcə şan-şöhrət sevdasındadırlar. Yuxudadırlar, nəinki reallıqda. Kino qəhrəmanı olmaq ən böyük arzularıdır. Hollivud aktyor məktəbi, De Niro-zad qələt edir bu baxımdan Trampın yanında. Görəcəksiz, tezliklə o, Hollivudla Ağ Ev arasındakı uzun məsafəni xeyli qısaldacaq. Camaat, Hollivud filmlərindən nəzərlərini kənara çəkib əsl filmi Donald Tramp ifasında qəbul edəcək. Tramp bütün bunlara çoxdan...lap çoxdan...hələ 90-cı illərin əvvəlində "Evdə tək" filmində ifa etdiyi epizodik xırda roldan hazırdır. Filmdə az yaşlı Kevin Makklaster, Milad gecəsi vaxtı yolunu azıb Nyu-Yorkun düz mərkəzində aşkarlayır özünü. Ucaboy birisinə yaxınlaşıb "Plaza Hotel"də qeydiyyat masasının ünvanını soruşur. Cavab qısa səslənir-"Düz gedib sola burulun".

Filmə o vaxtlar baxarkən hardan biləydik ki, ekranda cəmi bircə saniyə parıldayan həmin bu hündürboy kişi sonralar Amerikanın prezidenti seçiləcək. Bütün dünyanı məcbur edəcək ki, həmin epizoda bir də diqqətlə, saatlarla baxsın.

***

Səbirli olun. Mövzuya hələ nöqtə qoymamışam. Məşhur sovet kinorejissoru, "Brilyant əl" filminin müəllifi ölməz Leonid Qayday da Donald Trampa şəxsi simpatiyasını gizlətməyi bacarmayıb . Qayday "Deribasovskda hava yaxşıdır və ya Brayton-Biçdə yenə yağışlar yağır" filminin son titrlərində tarixə düşəcək öz səmimi etiraflarını qeyd edib: **"Çəkiliş heyəti, cənab Doland Trampa, "Tac-Mahal" kazinosuna, habelə Nyu-Cersi ştatı rəhbərliyinə çəkilişlər zamanı göstərdikləri qayğıya görə dərindən minnətdarlıq bildirir".**

Zaman qum saatında axan çaydır. Böyük rus rejissorunun tarixə həkk etdiyi bu qanadlı aforizmin yanına sonralar rus-prezident Vladimir Vladimoroviç Putin də öz imzasını qoymağı unutmur. Demək istəyirəm ki, Tramp-Rusiya mövzusu çoxdan başlayıb indiyədək davam edir. O, Şərqi Avropa, Rusiyaya öz simpatiyası ilə seçilir. Kapitoliyada hökm sünən ənənəvi anqlo-saks rusafobluğu ona yaddır. Trampın üç arvadından ikisinin slavyan mənşəli olmasını da *(ikinci arvadı İvana çex, indiki arvadı Milena sloven mənşəlidir)* biz məhz bununla izah edilməlidir. Donald Trampa, qohum-qardaş əhatəsində "Don" deyə müraciət edənlər arasında, şükür, Azərbaycan iş adamları da var. 2013-cü ildə Ağalarovlar ailəsinin dəvəti ilə Moskvaya gələn "Don", burda öz qədim arzusuna-istəyinə yetişərək, dünya çapında gözəllik yarışması keçirdib. Qısası, Donu Rusiyaya bağlayan amillər bir deyil, iki deyil. Siyahıda rus gözəlləri də mövcuddur.

***

Burda həm də Trampın alman mənşəyi öz son, qəti sözünü deyib, məncə. Hələ uşaqlıqdan öz dəcəlliyi, ipə-sapa yatmamağı ilə yadda qalan Trampı almanpərəst atası bir dəfə möhkəmcə döyüb. Salıb təpikləri altına. Sonra bu zavallı 13 yaşlı uşağı adi "Kyu Forest" məktəbindən çıxardıb. Deyib "Zarafat qurtardı. Səni göndərirəm internata. Nyu-York Hərbi Akademiyasına".

Yuxudan erkən saatlarda durmağı Tramp bax o zamanlardan öyrənərək indiyədək uğurla davam etdirir. Qolf oyununa, reqbiyə, beysbola, qısası hər cür idman növünə marağı da təhsil aldığı Nyu-York Hərbi Akademiyasından başlayır. Hərbi təhsil zamanı, 1964-cü ildə o özü kimi dəcəllərdən böyük bir bölük yaradaraq, onlara iri hərbi addımlarla, nizamlı şəkildə yürüməyi öyrədir. Amerikalılar üçün sülh mənasını verən "Barışıq günü" bu şəxsi heyətin başında 5-ci Avenyuda peyda olaraq əvvəlcə valideynlərin, sonra bütün Amerikanın məhəbbətini qazanır özü üçün. Daha bundan sonra dayanmır.



Elə hey addımlayır...addımlayır... Gəlir yetişir son seçkilərdəki finiş nöqtəsinə. Gövdəsi, ayaqları arxada qalsa da, sinəsi ilə qırmızı lenti parçalamağı bacarır.

Məhz həmin 60-cı illərin ortasında eyforiyaya qapılmış Tramp, hərbi təhsilini aktyor sənəti ilə əvəzləmək, Hollivud məktəblərindən birinə daxil olma barədə çiy xəyallara qapılır.

Lakin sonra nəsə baş verir bu dəcəl uşağın beynində. Həmyaşıdlarının Vyetnam müharibəsinə nifrəti, kosmopolitizmi, habelə digər incə nüanslar alman qayda-qanununa öyrəncəli Trampa xoş gəlmir. Birtəhər görünür. Gələcəkdə bu hislər onda bir zaman yatıb sonra yenidən oyanacaq. Son seçkilər zamanı tale onu yenidən sanki 60-cı illərə qaytarıb Hillari Klintonla üzbəüz, təkbətək qoyduğu zaman, həəə...Tramp təzədən o günlərini xatırlayacaq.

Ovaxtkı Klintonlara uduzan Tramp bu dəfə hisslərə qapılaraq geriyə addım atmayacaq. Əksinə, ovaxtkı bütün acılarını xatırlayaraq Klintonlara, demokratlara, liberallara, sosialistlərə qarşı öz qələbə əzmini qoyacaq ortaya. Və...

Və qələbə çalacaq bu nihilistlər, liberallar dəstəsi üzərində.

Yəni həm də liberal Azərbaycan müxalifəti üzərində.

***

Həmin dövrdə Amerika gəncliyi Klintonlar ailəsi nümunəsində başdan-ayağa nihilizmə, inkarçılığa, hippiliyə, sosializmə, demokratiyaya aludəydi. Tramp kimi idman həvəskarları, ordu, nizam-intizam aşiqləri gülməli görünürdü cəmiyyətdə. Beləlerini satqın, yaltaq, qaraguruh adlandırıb ayrı-seçkiliyə, təzyiqə məruz qoymaq, artıq öz dövrünün bir növ adətinə çevrilmişdi.

Həmin vaxtlar-60-cı illərin axırlarına yaxın, Tramp, Amerika vətəndaş cəmiyyətindən, hippilərindən, ümumiyyətlə, gənclikdən inciyərək sözün əsl mənasında depressiyaya düşür. Əlacı biznesdə taparaq atasının yardımı ilə tikinti biznesinə qatılıb tez zamanda böyük uğurlar, qazanclar götürür özünə bu sahədə. Daha, bir nöqtədə dayanmaq istəmir.

***

70-cilərdə Tramp, Manhetten fatehi azarına düşərək Nyu-York tikinti maqnatları sırasına daxil olur. Bir-birinin ardıca ölkənin bir çox ünvanlarda orta təbəqəyə uyğun çoxmərtəbəli göydələnlər ucaltmağa başlayır. Qəsr tikmək, qüllə sahibi olmaq azarı, deyilənə görə, Trampın uşaqlıqdan gözündə qalmış nakam arzusuymuş. Həyatının Manhetten dövründə Tramp bu uşaqlıq komplekslərini uğurla reallaşdırır. Okean sahillərindəki qumluqlarda göydələn ucaldan körpələr sayağı, bütün Amerikanı öz yeni hündür qəsrləri ilə valeh edir. Kiçik oğlu Berrona, belə göydələnlərin birində bütöv bir mərtəbə hədiyyə edən Tramp, onu başdan-ayağa uşaq oyuncaqları ilə doldurub. Desələr ki, bu oyuncaqlarla Berrondan çox Trampın özü oynayır, mən buna iynə ucu qədər də təəccüblənmərəm.

Yəni öz fərdi-fəqrli komplekslərini ictimailəşdirmək ehtirasını Tramp həmişə bu və ya digər şəkildə həyata keçirməyə bacarıb. Oyuncaq arzusu da, deyəsən, onun hələ də ən nakam arzusu olaraq qalır.

***

Siyasətdə də bu, mən sağ, siz salamat, görəcəksiz, sözün əsl mənasında təkrarlanacaq. "Vaşinqton bataqlığını qurutmağa" söz vermiş bu həmişəyaşıl qəhrəmana qarşı mənim nədənsə böyük simpatiyam var.

İnanıram ki, o, Bakıda təkcə yerli oliqarxlarla deyil, həm də bizim kimi öz təəsübkeşləriylə də görüşəcək.

Azərbaycanın maraqları, məncə, Tramp dövründə ziyan görməyəcək. Əksinə, bu dövrdə fürsətdən istifadə edib Hesparid bağlarından Herakl kimi qırmızı almanı dərmək olar.

Sadəcə, biz gərək indidən aydın bilək ki, nədir bizim üçün həmin o qızıl alma?

Tramp, çoxlarından fərqli olaraq, bu qızıl almanı çox real bilir.

Qırmızı almaların, oyuncaqların sahibi indi məhz odur axı.

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017

# Müxalifət Obamanın 8 illik prezidentliyinə qiymət verdi

**Mirmahmud Mirəlioğlu:** "...Dünyaya demokratiya baxımından necə təsiri olubsa, Azərbaycana da elə olub"
**İqbal Ağazadə:** "Pulun siyasət üzərində hökmranlığı mərhələsi bitmiş hesab olundu"
**Sərdar Cəlaloğlu:** "Obamanın hakimiyyəti dönəmində dünya qan çanağına döndü"



**Barak Obamanın 2008-ci ilin yanvarın 21-dən başlanan prezidentliyi bir həftə sonra rəsmən başa çatır. ABŞ prezidenti olan şəxsin fəaliyyətinin təkcə ABŞ-a aid olmadığı, bütün dünyaya da təsiri olduğu bəllidir. Bir çox ölkələrin siyasi qüvvələri, cəmiyyətləri adətən ABŞ prezidentlərindən demokratiya məsələsində dəstək gözləyirlər.**

Dünyanın superdövləti sayılan ölkənin bir çox zamanlarda liderləri bu gözləntilərə demokratiyaya real dəstəklə müsbət reaksiya vermələri ilə fərqləniblər və demokratik qüvvələrin yaddaşında müsbət qalıblar. 8 illik prezidentliyi yekunlaşmaq üzrə olan Barak Obamanın dünya demokratiyası, o cümlədən Azərbaycanda demokratiyaya münasibəti baxımından Azərbaycan müxalifəti tərəfindən necə qiymətləndirildiyini araşdırdıq.

**KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, Barak Obamanın prezidentlik fəaliyyətinin dünyaya demokratiya baxımından necə təsiri olubsa, Azərbaycana da elə olub:** "Yeni dünya Obamanın fəaliyyətindən necə təsirlənibsə, bizim də qiymətimiz ona uyğun olmalıdır. Azərbaycan demokratiya ilə bağlı öz istəyinə bu səkkiz ildə çatdımı? Çatmayıb. Odur ki, biz özümüzlə məşğul olmalıyıq. Kənardan, ABŞ-dan demokratiya gözləməli deyilik. Azərbaycana yan təsirlərdən daha çox, Azərbaycanın özünün yan təsirlərindən çıxış eləməliyik. Bu gün Obamadır, sabah Tramp olacaq. Bunun bizə az təsiri var".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, Barak Obamanın prezidentliyi dönəmi dünya üçün uğurlu oldu:** "Demokratiya ayrıca ələhiddə bir proses deyil ki, onu gerçəkləşdirmək başqa sahələrdən kənarda mümkün olsun. Çünki demokratiya 20-ci əsrdə düşüncə məsələsidir, yaşam tərzi məsələsidir, vərdişlərdir. Ona görə də buna bütövlükdə qiymət vermək lazımdır. Obamanın 8 illik prezidentliyi dönəmində iqtisadiyyatın siyasət üzərində hegemonluğu və yaxud pulun siyasət üzərində hökmranlığı mərhələsi bitmiş hesab olundu. 2008-ci ildən günümüzün reallığına qədər hətta bəzi dəyərləri pulla alan siyasi institutların nümayəndələri və yaxud hakimiyyət nümayəndələri 2010-cu ildən sonra bu tendensiyanın aradan qalxdığının şahidi oldular. Barak Obamanın gəlişindən sonra bazisin üstqurum üzərində hökmranlığı dönəmi bitdi, üstqurum yenidən dünyadakı öz əsas yerinə qayıtmış oldu. Bu, ən önəmli faktlardan biri idi. Artıq xeyli dərəcədə insan, bir sıra keçmiş postsovet respublikalarında insanlar düşüncə və yaşam tərzlərində dəyişiklik etməyi, yeni dünya ilə birlikdə inkişaf etməyi qarşılarına məqsəd qoydular. Nə qədər nail olundu, bu, zamanın işidir, buna vərdişlər lazımdır. Bu vərdişlər də zaman-zaman əldə olunacaq. Barak Obamanın prezidentliyi dönəmi dünya üçün uğurlu oldu.

Deyilə bilər ki, 2008-ci ildən sonrakı 8 ildə Azərbaycanda demokratiya sarıdan vəziyyət yaxşı olmayıb. Mən isə bildirmək istəyirəm ki, məgər 2008-ci ildən öncə vəziyyət indikindən yaxşı idi? 8 il əvvəl vəziyyət indikindən də pis idi. 8 il bundan əvvəl fərqli siyasi düşüncədə olan adamlar siyasi proseslərdən kənarda qalmışdılar. Azərbaycan müxalifəti bu gün heç olmasa fərqli fikrini deyə bilir. Yəni Barak Obama hakimiyyətə gəlməzdən öncə Azərbaycan müxalifətinin, demokratiyasının vəziyyəti daha pis idi".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, Obamanın prezidentliyi dövründə dünyada nəinki demokratiya, sülh və əməkdaşlıq çox ciddi zərərlər gördü:** "Barak Obamanın vaxtında Yaxın Şərq hadisələri, Ukrayna hadisələri baş verdi. Rusiya-Qərb qarşıdurması yarandı, Avropa Birliyinin parçalanması prosesi başlandı, dünyanın bir çox bölgələrində, həmçinin Azərbaycanda demokratiya boğuldu, ABŞ isə seyrçi qaldı. Eyni zamanda Obamanın prezidentliyi dönəmində dünyada başlayan qlobal iqtisadi böhran təbii olaraq həm də çox ciddi sosial, siyasi böhranlara gətirib çıxardı. Bu da bütün dünya üzrə insan hüquq və azadlıqlarının məhdudlaşdırılması, demokratik azadlıqların məhdudlaşdırılması kimi bir çox neqativ hadisələrə yol açdı. Obamanın hakimiyyəti dönəmində dünya qan çanağına döndü. Obama özündən sonra dünya üçün çox ciddi problemlər qoydu. Yeni prezident Donald Tramp bəyan edib ki, Obamanın verdiyi qərarların 70 faizi dəyişdiriləcək. 70 faizi dəyişdirilməsi zəruri olan qərarlar onlardır ki, onlar dünyada indiki vəziyyətin yetişməsinə gətirib çıxarıb".

❑ **Etibar SEYİDAĞA**

# AĞ Partiyanın qeydiyyat müəmması

## Partiya rəhbəri fəaliyyətdə olduqları yarım ildən danışdı; **Tural Abbaslı:** "Siyasətdə parlayan qurumlardan biri biz olacağıq"

**Ötən ilin yayında yaradılan AĞ Partiyanı hələ də Ədliyyə Nazirliyi qeydə almayıb. Bununla belə, partiyanın təşkilatlanması prosesi sürətlə gedir. Dekabrın sonlarında qurumun gənclər qolu da yaradılıb. Hazırda AĞ Partiya qeydiyyat üçün etdiyi müraciətin cavabını gözləyir.**



**Partiya başqanı Tural Abbaslı** "Yeni Müsavat"a açıqlamasında əsas fəaliyyətlərini strukturlaşma üzərində qurduqlarını bildirdi: "Partiyanın seçkisi orqanları formalaşıb, müavinlər və müşavirlər də təyin olunub. Bakı və regionlar üzrə təşkilatların formalaşdırılması üzrə işlərimiz davam edir - baxmayaraq ki, ölkədə iqtisadi böhran və digər problemlər var, amma əhalinin müxalifətə maraq göstərməməsi göz önündədir. Bununla belə, partiyamıza qoşulmaq üçün müraciətlər var, xüsusilə gənclər tərəfindən müraciətlər daha çoxdur. Hətta tam əminliklə deyə bilərik ki, qısa müddətdə mövcud olmağımıza baxmayaraq, Azərbaycanda strukturlaşma, rəsmiyyət və çeviklik baxımından ilk beş partiyadan biriyik. Bunları pafoslu demirəm. Partiyamız 1993-cü il yanvarın 13-də qeydiyyatdan keçib. Yəni qeydiyyatımız var. Sadəcə olaraq, ad dəyişiklyi və qurultayın təsdiq olunması ilə bağlı müraciət etmişik. Nizamnaməni dəyişmişik, hər dəfə bəzi texniki problemləri əsas gətirirlər. Biz də qeyd edirik ki, o qüsurlar yoxdur - buna baxmayaraq, nazirliyin qeyd etdiyi qüsurları düzəldirik. Ümid edirəm ki, yaxın zamanlarda bu məsələ də həllini tapar. Çünki süni şəkildə uzatmağın, əngəllər yaratmağın heç bir mənası yoxdur. Onsuz da Azərbaycanda siyasi partiyalar hələ ki siyasi proseslərdən kənarda qalıblar. Hakimiyyət diqqətlə baxsa görər ki, siyasi partiyaların proseslərdən kənarda qalması heç də müsbət amil deyil. Çünki cəmiyyətin yönləndirilməsində çətinliklər yaranır ki, nəticədə başqa qüvvələr prosesə nəzarət edirlər. Ona görə də partiyaların yaranması, onların fəaliyyət göstərmələri hakimiyyətin də diqqətində olmalıdır".

**T.Abbaslı qeydiyyatın olmamasına rəğmən, fəaliyyətlərini davam etdirdiklərini dedi:** "Siyasi səhnədə rol almaqda davam edəcəyik. Reallıqdır ki, hazırkı iqtidar hakimiyyətə gəldiyi ildən etibarən siyasi durum ölkədə ağırlaşıb. Vəziyyət o həddə çatıb ki, bu gün hansısa bir siyasi qurumun qərargahının olması müsbət addım kimi dəyərləndirilir. Müxalifət bütün resurslardan məhrum olunub. Bunun nəticəsində partiyalar ideoloji xətti buraxaraq, sırf sosial problemlərə adaptasiya olunmağa başladılar. Bu gün sağçı, solçu partiyalar koalisiya yarada bilirlər. Amma AĞ Partiya olaraq, bizim ideoloji xəttimiz var. Biz sağ mühafizəkar partiya kimi formalaşırıq və bizimlə ideologiyaları eyni olan şəxslər, qurumlarla birlikdə fəaliyyət göstərməyi qərara almışıq. Çünki ideologiya ətrafındakı birləşmələr daha möhkəm olur. Bu baxımdan, sevindirici haldır ki, partiyamızın ideoloji xəttini müdafiə edənlər daha çox müraciət edirlər. Biz Türkiyə hakimiyyəti və hazırkı hakim partiya ilə əlaqələrin qurulmasının tərəfdarıyıq. Bir millət-iki dövlət deyil, bir millət bir dövlət olmağın, İslam birliyinin tərəfdarıyıq".

**Partiya başqanı fəaliyyətdə olduqları 6 ayda gördükləri işlərdən danışdı:** "Fəaliyyətdə olduğumuz 6 ay ərzində siyasi proseslərdə ən passiv dövrlərdən biri olub - baxmayaraq ki, iqtisadi böhran ən yüksək səviyyəyə çatıb, bu, siyasi aktivliyə zərrə qədər də təsir etməyib. Amma bununla belə, ciddi uğurlarımız oldu. Cəmiyyətdə özümüzü siyasi qüvvə kimi tanıtdıq, cəmiyyət də artıq bizi belə qüvvə kimi qəbul edir. Bu gün partiya olaraq müxtəlif bloklarda təmsil olunuruq. Köklü partiyalarla birlikdə problemlərlə əlaqədar fəaliyyət göstəririk. Üstün cəhətlərimizdən biri gənclərlə bağlıdır. Bu gün bir çox siyasi partiyaların gənclər təşkilatları olmadığı halda, fəaliyyətdə olduğumuz 6 ay ərzində gənclərin möhtəşəm konfransını keçirdik. Yəni bizə meyl göstərənlər sırasında gənclər üstünlük təşkil edirlər. Uğurlarımız çox oldu, bundan sonra daha çox uğur əldə etmək üçün bütün gücümüzü sərf edəcəyik. Əminəm ki, yeni siyasi qüvvə kimi qarşımıza qoyduğumuz hədəflərə çatacağıq və siyasətdə parlayan qurumlardan biri biz olacağıq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017



# Jurnalistlərin Ağ Evdə gərnəşməsinin sonu

**Samir SARI**

**Vaxtında ingilis dilini mükəmməl öyrənmədik, yoxsa prezident Trampın mətbuat konfransına canlı-canlı baxardıq.**

Əslində, biz o dili yaxşı öyrənirdik, amma Bəylər müəllimin təyinat müddəti qurtaran kimi çıxdı getdi Bakıya, gedib orda universitetlərdə işlədi, arada hətta baş nazir Həsən Həsənova tərcüməçilik etdi, amma ara yerdə bizim ingilis dili biliyimiz yarımçıq qaldı. O üzdən Trampın çıxışına canlı baxa bilmədik.

Amma brifinqin videoyazısına baxdıq və cənab Trampın CNN-də çalışan həmkarımıza qarşı o cür hərəkət eləməsinə xeyli "nervilləndik".

O nəydi? Təsəvvür edin, dünyanın ən demokratik ölkəsinin birinci adamı o boyda media şirkətinin adını çəkir, onu yamanlayır, pisləyir, amma onlara cavab haqqı tanımır. CNN-in təmsilçisi təbii olaraq söz istəyir, sualı olduğunu deyir, amma, türkün sözü, çiçəyi burnunda prezident ona imkan vermir, deyir, sənə söz verməyəcəm, mumla, otur bir qıraqda.

Sanasan, Tramp parlamentimizin spikeri Oqtay Əsədovdur, söz istəyən də deputat Zahid Orucdur.

Hələ yeni prezidentin mətbuat katibi də söhbətə qarışır, jurnalistə deyir, şair, hökmdarın hüzurundasan, o yan-bu yan eləsən, səni brifinq zalından qovacağıq, mikrofonunu qoy bir dinməz yerə, sakit otur. Polkovnik Çingiz Məmmədov kimi birinin gəlib jurnalistə "gou avey" deməsi qaldı, o da olsaydı, mənzərə tam olacaqdı.

Bax, demokratiya buna deyərəm. Jurnalist özbaşınadırmı ki, prezidentlə ağac-ağaca qoysun, onunla söz güləşdirsin, "cavab haqqım var" desin. Jurnalist nədir, prezidentin (hətta nazirin) qabağında söz demək nədir? Jurnalist ən uzağı, məhkəmədə son söz deyər, bir də məhkəmə binasının qabağında həmkarlarına "məni orda incitdilər" deyib ağlayar.

Amerikalı jurnalistlər ağ eləmişdilər, biri prezidentin qabağında gərnəşirdi, o biri saqqız çeynəyə-çeynəyə köntöy sual verirdi, başqa biri girəvələyib prezidentin namünasib (məsələn, burnunu qaşıyan yerdə) şəklini çəkirdi. Bizimkilər də onlara baxır, başları pozulurdu, elə bilirdilər, norma budur, qayda belədir.

Amma Tramp hələ Ağ Evdəki qırmızı kreslonu isitməyib, amma jurnalistlərin bir neçəsinə özünün və onların kim olduğunu göstərdi. To be continiued. Yəni ardı var. Nələr görəcəyik, nələr.

O, onu tənqid edənlərin, seçki kampaniyasında ona əngəl törədənlərin hamısına başa salacaq ki, yanlış yapıblar.

İndi bir çoxları yarızarafat-yarıciddi soruşurlar ki, görəsən, Tramp ona qarşı yazılar yazan jurnalistləri tutdurarmı, döydürərmi, məhkəməyə verdirərmi?

Niyə eləmir, qardaşlar? Bəşər övladı deyilmi? Bal kimi edər də, etdirər də. Məsələn, o tərifli Seymur Herş var ha, prezident Niksonun vaxtından ta bu günə qədər ABŞ-da at oynadan araşdırmaçı jurnalist, bax, Tramp istəsə, onu da tutdurar. Herşin hünəri var, özünü o biri prezidentlərin vaxtında olduğu kimi aparsın, qalmaqallar yaratsın, prezident administrasiyasına direşsin. Elə etsə, Tramp heç baxmaz ki, 3 aydan sonra ağsaqqal jurnalistin 80 yaşı tamam olacaq, tutdurub qoydurar içəri.

Bax, onda bizim Seymur Həzi də türmədən Seymur Herşə məktub yazar, "hello, dear adaş və həmkar, how are you" deyə hal-xətir sorar, təsbeh də göndərər.

Bəlkə də daha yaxşısı, CNN-i bağlatdırmaq ola bilər. ABŞ hüquqi dövlət deyilmi, orada Mətbuat və Teleradio Şurası yoxdurmu? Axtarsalar, məlum olacaq ki, CNN-in reportyoru Pensilvaniyaya gedib, Fətullah Gülənin mətbuat konfransını işıqlandırıb. Al, sana səbəb. Bir daşla iki quş vurursan, həm CNN-i bağladırsan, həm də Güləni Türkiyəyə verirsən, Ərdoğanla aran düzəlir.

Siyasət budur. Yoxsa Obama jurnalistləri pis öyrətmişdi.

İnşallah, sələfinin buraxdığı boşluqları Tramp tezliklə dolduracaq, ABŞ dövlətçiliyinin boşalmış vintləri, necə lazımdır, sıxılacaq.

Hazırda bəziləri də impiçmentdən-filandan danışırlar, elə hesab edirlər ki, jurnalistlər sözü bir yerə qoyaraq, Trampı Niksonun gününə qoya biləcəklər. Ay-hay. Güman ki, əksinə olacaq, Tramp Niksonun qisasını jurnalistlərdən alacaq.

Hər halda, Amerika xalqına, dünya ictimaiyyətinə xeyirli-uğurlu olsun. Belə getsə, gözəlim ABŞ Banqladeş standartlarına yaxınlaşacaq, bizim də canımız dincələcək, okeanın o tayındakı həmkarlarımıza həsədlə baxmayacağıq.



# SOS: Bakıda yayılan qrip ölüm gətirir

## Seyfəddin Əsəd: "Bu qripin orqanizmdə saçdan dırnağa qədər zədələmədiyi nöqtə yoxdur"

**Ölkəmizdə yayılan qrip virusu insanlar arasında ciddi təlaş yaradıb. Hazırda H3N2 adlandırılan bu virus sürətlə yayılmaqdadır. Virus yalnız Azərbaycanda deyil, qonşu ölkələrdə də var və geniş yayılıb. Hətta bu qrip epidemiyası Fransanın Lion şəhərindəki qocalar evində 13 nəfərin ölümünə səbəb olub. Ölkənin sosial məsələlər və səhiyyə naziri Marisol Turen ağır xəstəliyin ölümcül fəsadlarının 23 dekabrdan 7 yanvaradək olan müddətdə ortaya çıxdığını bildirib. Nazir vurğulayıb ki, belə hadisəni "fövqəladə vəziyyət" hesab edir. O qeyd edib ki, qripdən ölmüş qocaların orta yaş həddi 91,5 olub. Qocalar evində yaşayan 72 nəfərdən hazırda daha altı nəfəri xəstəxanaya yerləşdirilib. Nazir ölkənin İctimai Təminat Baş İdarəsinə hadisənin təhqiqatı ilə bağlı göstəriş verib.**

Fransada qrip epidemiyası 2016-cı ilin dekabrından yayılıb. Ölkənin tibb mütəxəssisləri xəstəliyin xüsusən 65 yaşdan yuxarı insanlar üçün təhlükəli olduğunu bildiriblər. Ölkəmizdə də qripə yoluxanlar kifayət qədər olsa da, hələ ki ölüm faktı qeydə alınmayıb. Səhiyyə Nazirliyi sonuncu açıqlamasında H2N1 adlanan bu virusun təhlükəli olduğunu deyib. **RTƏS-in Xüsusi təhlükəli yoluxucu xəstəliklərin epidemiologiyası şöbəsinin müdiri, tibb elmləri namizədi Rita İsmayılova** ötən ilin oktyabr ayından indiyədək Səhiyyə Nazirliyi (SN) Respublika Taun Əleyhinə Stansiyaya (RTƏS) kəskin respirator viruslara yoluxmalara görə laboratoriya müayinələrinin aparılması üçün 265 nümunə daxil olduğunu bildirib.

**Onun sözlərinə görə, bu nümunələrin müayinəsi nəticəsində 2 nəfərdə A qripinin H3N2 virusu, 5 nəfərdə paraqrip, 6 nəfərdə Adena virus, digərlərində isə kəskin respirator virus infeksiyaları aşkarlanıb. R.İsmayılova qeyd edib ki, H3N2 virusunun aşkarlandığı 2 nəfər son 1 ay ərzində ölkədən kənara çıxmayıb:** "Yəni bu, onlar tərəfindən gətirilmə virus deyil. Onlar elə Azərbaycanda olarkən bu virusa yoluxublar. H3N2 virusuna yoluxan şəxslər xəstəliklərini çox yüngül keçirdiklərindən onları heç stasionar müəssisəyə də yerləşdirməmişik. Həmin şəxslər artıq sağalıblar".



**R.İsmayılova H3N2 virusunun mövsümi qrip olduğunu və onun daha yüngül klinik əlamətlərlə müşahidə edildiyini də söyləyib. Onun sözlərinə görə, bu virusa yoluxma zamanı xəstədə hərarət, başağrısı, boğaz ağrısı müşahidə edilir:** "Qrip hesab olunmayan və qripə bənzər əlamətləri olan paraqrip və Adena virusa yoluxma zamanı da soyuqlama əlamətləri - yüksək hərarət, başağrısı, öskürək, boğaz ağrısı müşahidə edilir. Amma bu xəstəliklərdən ağırlaşmalar olmur. Biz müayinələr zamanı gördük ki, H3N2-yə yoluxanların vəziyyəti paraqrip və adena virusa yoluxanlarla müqayisədə daha yüngüldür".

**Stansiya rəsmisinin sözlərinə görə, paraqrip, Adena virus və H3N2 viruslarından hansının insan orqanizmi üçün daha təhlükəli olması barədə fikir yürütmək olmaz:** "Çünki bu xəstəliklərin necə keçməsi insanın özünün immunitetindən, gigiyenik qaydalara, yataq rejiminə əməl etməsindən asılıdır. Əgər insan yataq rejimində olmursa, özünü soyuğa verirsə, lazım olan həcmdə maye qəbul etmirsə, əllərini tez-tez sabunla yumursa, onda ağırlaşmalar baş verə bilər. Ona görə də demək mümkün deyil ki, bunlardan hansı daha ağır keçir. Bu, fərdi məsələdir".

**Ümumiyyətlə qripə yoluxanlar artıq onlara antibiotiklərin də təsir etmədiyini deyir. Bəs qripdən qurtulmaq üçün hansısa təbii yollarla müalicələr, türkəçarələr varmı?**

**Təbii üsullarla müalicə həkimi Seyfəddin Əsəd qripə qarşı təbii vasitələrdən istifadə etməklə ondan xilas olmağın mümkün olduğunu dedi:** "Əgər qrip olma ehtimalınız varsa və ya artıq qrip olmusunuzsa, burun boşluğuna hər iki saatdan bir soğan suyu tökülür. Əgər qripə yoluxan körpə uşaqdırsa, soğan suyu mütləq su ilə qarışdırılmalıdır. 2 saatdan bir 1 çay qaşığı bal ağızda sovrulur. Bir diş səhər, bir diş günorta və bir diş də axşam sarımsaq yeyilməlidir. Bir diş sarımsaq da kəsilib evdə boşqabda qoyulur ki, o virusların yayılmasının qarşısını alsın. Arı məhsulları, arı südü, çiçək tozu, bal, xüsusilə də tərkibində çoxlu təbii antibiotik olan, göbələk verməyən vərəm unu məhsulları qripin qarşısının alınmasında və müalicəsində çox əhəmiyyətlidir. Moruq, zoğal mürəbbəsi, sulu xəngəl, əvəlik yeyilməli, banka qoyulmalıdır. Xəstə keçi piyi ilə özünü yağlatmalı və möhkəm tərləməlidir. Bununla da qrip bir günə keçib gedir, ikinci günə keçmir".

**S.Əsəd qriplərin fərqli olduğunu dedi:** "Bu cür yayılan qriplər fərqlidir. Eləsi var ki, heç burundan su gəlmir. Birbaşa temperatur kəskin şəkildə qalxır. Bu, xüsusilə körpə uşaqlarda immunitet aşağı olduğu üçün kütləvi hal alıb. Ona görə də belə vəziyyətdə uşaqları evdə saxlamaq təhlükəlidir. Temperatur qalxanda qıcolmalar ola bilər və ciddi fəsadlara gətirib çıxara bilər. Ona görə də immuniteti yüksək olan adamlar qripə yoluxmurlar. Məsələn, arıçılar qripə heç vaxt yoluxmur. Qripli adam 10 adamla görüşür. Kimin immuniteti aşağıdırsa, o qripə yoluxur. İmmuniteti yuxarı olan adamlarda isə bu özünü göstərə bilmir. Qripin növləri çox olduğuna görə təəssüflər olsun ki, onun birbaşa müalicəsi üçün vaksin yoxdur. Bu da ciddi fəsadlara gətirib çıxarır. Orqanizmdə saçdan dırnağa qədər zədələyə bilmədiyi bir nöqtə yoxdur. Çünki qrip virusdur. Virus olduğu üçün də hər yeri deşib zədələyə bilir. Ürək əzələsində, oynaqlarda və yaxud da ki, müxtəlif boşluqlarda həmin yerin iltihabına qədər ciddi fəsadlara səbəb ola bilir. Xüsusilə də beyin toxuması olduqca həssasdır. Bu virus bütün mərkəzləri zədələyə bilir. Ona görə də qripdən qorxmaq və müdafiə olunmaq lazımdır".

**Günel MANAFLI**

# "Təzə-köhnə il"də yağış yağacaq



**Yanvarın 13-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Cənub küləyi günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq, axşama doğru arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən lent.az-a verilən məlumata görə, sabah havanın temperaturu gecə 2-4°, gündüz 8-11°, Bakıda gecə 2-4°, gündüz 8-10° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında gözlənilən hava şəraiti isə əsasən yağmursuz olacaq. Ayrı-ayrı yerlərdə duman, bəzi şimal və şərq rayonlarında isə yağıntılı olacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 2-7° isti olacağı gözlənilir.

# Manat tam "üzən məzənnə"yə keçdi - banklara sərbəstlik verildi

## Ekspertlər milli valyutanın durumunu müzakirə edirlər, manat hansı həddə saxlanacaq?

**İki gün əvvəl ölkədə bank rəhbərlərinin fövqəladə iclası çağırılıb. Baş bankir Elman Rüstəmovla bank rəhbərlərinin görüşündən dərhal sonra isə bankların dollar satışı ilə bağlı 4 faizlik marjanın ləğv ediləcəyi açıqlanıb. Yanvarın 12-dən valyuta bazarında sərbəstlik əldə edən bankların məzənnəni özləri müəyyənləşdirəcəyi bildirilib.**

Bundan sonra isə yeni formatda ilk valyuta hərracı baş tutub və dollar yenə bahalaşıb. Bildirilir ki, Mərkəzi Bankda Dövlət Neft Fondunun da iştirakı ilə keçirilən hərrac birtərəfli valyuta satışı formasında və rəqabətli qaydada keçirilib və sifarişlər ən yüksək qiymətdən ən aşağı qiymətə doğru təmin edilib. Hərracda manatın orta çəkili məzənnəsi 1,7867 səviyyəsində formalaşıb. Həmçinin yeni qaydalara əsasən, bundan sonra Mərkəzi Bank hərraca çıxarılan valyutanın həcmini öncədən bəyan edəcək. Gələn həftədən isə hərracların I, III və V günlər keçirilməsi qərara alınıb.




**Ekspertlər 4 faizlik marjanın ləğvinin hansı nəticələrə gətirib çıxaracağını musavat.com-a açıqlayıblar. Ekspert Natiq Cəfərli musavat.com-a bildirib ki, əslində son zamanlar rəsmi marjanın heç bir əhəmiyyəti qalmamışdı:** "Çünki dörd faizlik marjanın olması "qara bazar"ın yaranmasına bir yol açmışdı. Banklar əllərində olan az valyutanı özləri deyil, "qara bazar" vasitəsilə sataraq 4 faizlik marjanı aşırdılar. İndi reallığı qəbul edib buna uyğun valyuta-bank münasibətlərini qurmağa ehtiyac yaranıb. Ona görə də bu formallığın ləğv olunması lazım idi, qaçılmaz idi. Bu zaman bankların daha sərbəst şəkildə valyuta ilə bağlı qiymət siyasəti həyata keçirmək imkanı yaranacaq. Amma hər halda, rəsmi məzənnədən çox böyük fərqlərin olması ehtimalı da qalır. Rəsmi məzənnə ətrafında alqı-satqı həyata keçiriləcək və bankların bir-biri ilə rəqabəti əsasında məzənnə müəyyən olunacaq. Növbəti addım kimi gözlənti ondan ibarətdir ki, valyutadəyişmə məntəqələri açılacaq. Bunun qapadılması da doğru qərar deyildi, heç bir effekt vermədi, ajiotajı aşağı salmadı. Əksinə, valyutaya çıxış imkanlarını məhdudlaşdırdı. Alınan qərar bazar iqtisadiyyatı qaydalarına uyğun bir qərardır və formallığa çevrilmiş bu dörd faizlik marjanın ləğvinin zamanı yetişmişdi".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a açıqlamasında qeyd edib ki, bu barədə ekspertlər dəfələrlə təkliflər veriblər:** "Əgər həqiqətən də tam üzən məzənnəyə keçəcəyiksə, vacib şərtlərdən biri odur ki, banklara olan 4 faizlik marja tələbi aradan qaldırılsın. Üzənin əl-qolunu bağlamaq olmaz. Bu 4 faizlik marja ilə bankların əl-qolu bağlanmışdı, bu səbəbdən də banklar dollar satmırdı, dolları "qara bazar"a verirdilər. Yəni buna görə həqiqətən də Mərkəzi Bank manatın real qiyməti üçün vacib olan meyarlardan birinə riayət etmiş olacaq. Artıq banklar istədiyi məzənnə ilə valyuta satacaqlar. Marjanın ləğvi o demək deyil ki, Mərkəzi Bank bazara müdaxilə edə bilməz. Amma bu halda Mərkəzi Bank dollar satmağa məcbur deyil, istəyəndə satacaq. Hesab edirəm ki, bu, düzgün addımdır, manatın tam üzməsi üçün vacibdir. Bu halda "qara bazar"a ehtiyac olmayacaq".

❑ **Röya RƏFİYEVA**

# Azərbaycan "Blomberg"in siyahısına düşmədi

## Nüfuzlu agentlik investisiya qoyuluşu üçün əlverişli ölkələrin siyahısını açıqlayıb

**"Blomberg" agentliyi investisiya qoyuluşu üçün əlverişli ölkələrin siyahısını açıqlayıb. Rusiya, İndoneziya, CAR, Hindistan kimi ölkələrin yer aldığı siyahıya Azərbaycan düşməyib. Ölkədə isə iki ilə yaxındır ki, investisiya cəlb edilməsi üçün müxtəlif tədbirlər görülür. Azərbaycanın investisiya üçün cəlbediciliyinin olmamasının səbəblərini ekspertlər musavat.com-a açıqlayıblar.**

Blomberg®

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, "Blomberg"in siyahısına düşə bilməməsinin səbəbləri müxtəlifdir: "Əsas səbəblər ölkənin xronoloji xəstəlikləridir. Uzun zamandır Azərbaycanda inhisarçılıq və korrupsiya o qədər yüksək səviyyədə olub ki, bu, investorları çəkindirən əsas faktora çevrilib. Son zamanlar isə yeni faktorlar əlavə olunub. Ölkədə alıcılıq qabiliyyəti aşağı düşdükcə, əhalinin gəlirləri azaldıqca, investisiya üçün cəlbedicilik itir. İkinci problem iqtisadi məsələdən çox hüquqi məsələdir. Azərbaycanda müstəqil fəaliyyət göstərən məhkəmələr olmadıqca və mülkiyyət hüququnun toxunulmazlığı təmin edilmədikcə, ölkə investorları çox ciddi şəkildə çəkindirəcək. Son zamanlar hətta sərbəst şəkildə valyutaya çıxış imkanlarının məhdudlaşdırılması, valyuta alış-satışlarının çətinləşdirilməsi investorları ən çox çəkindirən məsələlərdən biridir. Ölkədə sərbəst şəkildə valyutanın daxil olmasına və çıxışına maneələr yaradılırsa və valyuta alış və satışı çətinləşdirilirsə, bu, bir siqnaldır. Son aylar baş verən proseslər investorları ölkədən daha da çəkindirir. Bu tipli reytinqlərdə Azərbaycanın yer almamasına və investisiya, yatırım üçün cəlbedici ölkə olmamasına səbəb olur".

**Qubad İbadoğlu isə bildirib ki, Azərbaycan investisiya cəlbediciliyini bir neçə səbəbdən itirib:** "Ölkənin korrupsiya, şəffaflıq, hesabatlıq göstəriciləri aşağıdır. Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Koalisiyasının Azərbaycanın Açıq Hökumət Tərəfdaşlığında statusunun endirilməsi də buna təsir göstərib. Beynəlxalq reytinqlər, o cümlədən beynəlxalq kredit agentlikləri qiymətləndirmə aparırlar, bu da son nəticəyə təsir göstərir. Bu, həm də ölkədəki mövcud iqtisadi durumla bağlıdır. Ölkədə idarəetmədə inzibati metodlardan istifadə olunması, oliqarx idarəçilik üsulunun davam etməsi də reytinqin pisləşməsini şərtləndirir. Hesab edirəm ki, ölkədə bazar institutlarının fəaliyyət göstərməməsi, qiymətlərin sərbəstləşdirilməməsi, Tarif Şurasının fəaliyyət göstərməsi də təsir göstərən amillərdən biridir. Eyni zamanda mövcud iqtisadi durum, manatın tarazlığının formalaşmaması, devalvasiya ehtimalları barədə xəbərlər cəlbedicilik səviyyəsinin aşağı düşməsinə və pisləşməsinə gətirib çıxarır. Bu baxımdan, "Blomberg"in siyahısında Azərbaycanın adına rast gəlmək mümkün deyil. Problemlər həll olunmasa, Azərbaycan investisiya cəlbediciliyi olan ölkələrin siyahısına düşə bilməyəcək".

❑ **Röya RƏFİYEVA**

ASAN VIZA
online viza

# "ASAN Viza"nın faydası nə olacaq? - rəsmi açıqlama

**10 yanvar 2017-ci il tarixindən etibarən "ASAN Viza" portalı (www.evisa.gov.az) test rejimindən çıxaraq tam istifadəyə verilib. Bu barədə "Yeni Müsavat"a "ASAN xidmət"in informasiya təminatı şöbəsinin müdiri Anar Hüseynov məlumat verib. O bildirib ki, bu günə kimi "ASAN Viza" portalından 900-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs elektron viza əldə edib:**

"16 dekabr 2016-cı il tarixində "ASAN Viza" portalının təqdimat mərasimi keçirilib. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər elektron vizanı "ASAN Viza" sistemi vasitəsilə 3 addımla (müraciət et, ödəniş et və e-vizanı yüklə) və 3 iş günü ərzində əldə edə bilər. Elektron viza ölkədə qalma müddəti 30 günədək müəyyən edilən birgirişli elektron vizadır.

"Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanına uyğun olaraq "ASAN Viza" sisteminin yaradılması təmin edilib. Ümumiyyətlə onu da qeyd edim ki, "ASAN Viza" Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsini, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sistemidir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 3 addıma (müraciət, ödəmə və viza blankını endirməklə) elektron viza ala biləcəklər. Daha geniş formada desək, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlayn şəkildə məlumatları göndərmək, onlayn ödəniş etməklə "ASAN Viza" sistemi vasitəsilə müraciətlərini rəsmiləşdirəcəklər. Nəticədə həmin sistemdən ən gec 3(üç) iş günü ərzində elektron viza blankını əldə edə biləcəklər. Əcnəbi bütün prosesləri elektron mühitdə edir və sistemə pasport məlumatlarını və özü haqda bəzi ümumi informasiyaları daxil etməklə, seçmiş olduğu gəliş tarixi üzrə 30 günlük 1 girişli viza əldə edir. Əgər müraciətlə bağlı əməliyyatlar yarımçıq qalarsa, sistemə daxil olaraq müraciətin istinad nömrəsini daxil etməklə viza müraciətinə qaldığı yerdən davam edə bilər".

**Onu da qeyd edək ki, prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı bu məsələyə də toxunub. Prezident bu sistemin ölkəyə gələn turistlərin sayına müsbət təsir edəcəyini bildirib.** "2017-ci il turizmlə bağlı daha da uğurlu olacaq. Baxmayaraq ki, bu il turistlərin sayı 11 faiz artıb. Ancaq görülən tədbirlər nəticəsində əminəm ki, bu il daha da çox turist gələcək. Burada əlbəttə ki, bir neçə amil var. İlk növbədə ölkəmizə gəlmək üçün indi heç bir problem yoxdur. Bütün süni əngəllər aradan götürüldü və burada məruzə edildi. "ASAN Viza" və digər xidmətlər vasitəsilə turistlər Azərbaycana maneəsiz gələcək. Bu, ölkə iqtisadiyyatına çox böyük dəstək olacaq. Həm Bakıda, həm bölgələrdə böyük canlanma olacaqdır. Bizim turizm infrastrukturu da buna hazır olmalıdır", - deyə prezident bildirib.

❑ **Əli RAİS**

# Ölkəyə kameralı eynək gətirən QHT rəhbərinə ağır cəza



**Mənimsəmədə təqsirləndirilən QHT sədri İlqar Əliyevin cinayət işi üzrə məhkəmə prosesi davam edib.**

Lent.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror çıxışında İ.Əliyevin 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Məhkəmə yanvarın 24-də davam edəcək.

Qeyd edək ki, Moskva-Bakı aviareysi ilə gələn Azərbaycan Respublikası vətəndaşı Əliyev İlqar Talışxan oğlu gömrük nəzarətindən keçərkən Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən onun baqajına rentgen aparatı vasitəsilə baxış keçirilib və monitorda metal əşyaların təsvirləri əks olunduğuna görə təkrar yoxlama aparılıb. Yoxlama zamanı sərnişin Əliyev İlqar Talışxan oğluna məxsus çamadanda olan şəxsi əşyaların arasından əvvəlcədən gömrük nəzarətinə təqdim olunmayan, elektron, kağız üzərində yazılı və ya şifahi formada bəyan edilməyən, metaldan hazırlanmış 7 ədəd müxtəlif ölçülü və formalı bıçaqlar, 1 ədəd beşguşəli, itibucaqlı ulduz formalı predmet, 1 ədəd kameralı qələm və 1 ədəd kameralı eynək aşkar olunaraq protokol əsasında götürülüb. İ.Əliyev izahatında "Yeni Sabah" Qeyri-Hökumət Təşkilatının sədri olduğunu və həmin əşyaları Tailandın Pattaya şəhərində olarkən mağazadan aldığını bildirib. Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəyinə əsasən bıçaqlardan 5-i soyuq silah hesab olunur, 1 ədəd eynək və 1 ədəd qələm isə mövcud ola biləcək məlumatları izləmək, dinləmək, köçürmək, pozmaq, əlavə etmək kimi funksiyalara malikdir və onlar gizli yolla informasiya əldə etmək üçün nəzərdə tutulmuş əşyalardır. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə), 192-ci (qanunsuz sahibkarlıq), 228.4-cü (qanunsuz silah saxlama) və 308-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə ittiham olunur.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarnın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Nardaran hadisələri ilə bağlı daha bir məhkəmə başlayır

**Bakının Nardaran qəsəbəsində baş vermiş insidentlə bağlı saxlanılan Zülfüqar Mikayılov, Elman Ağayev və digər 10 nəfər barəsində olan cinayət işi icraata verilib.**

APA-nın məlumatına görə, cinayət işi baxılmaq üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İş hakim Zeynal Ağayevin icraatına verilib. Məhkəmənin hazırlıq iclası yanvarın 19-da keçiriləcək.

Qeyd edək ki, 2015-ci il noyabrın 26-da Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Nardaran qəsəbəsində keçirdiyi əməliyyat nəticəsində "Müsəlman Birliyi" hərəkatının rəhbəri Taleh Kamil oğlu Bağırov, Elman Seydəmir oğlu Ağayev, Zülfüqar Sədrəddin oğlu və digərləri saxlanılıb.

Əməliyyat zamanı 2 polis əməkdaşı, 4 qəsəbə sakini həlak olub.

Nardaran hadisələri ilə bağlı saxlanılan şəxslərin cinayət işi üzrə istintaq bir neçə yerə ayrılıb. Onlardan Taleh Bağırov və digər 18 nəfərin cinayət işi üzrə hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində proses keçirilir. Taleh Bağırovun müavini olan Elçin Qasımov və digər 12 nəfərin cinayət işi üzrə istintaq isə bir müddət əvvəl yekunlaşıb. Hazırda onların da məhkəmə prosesi davam edir.



## Neftçalada evin 18 yaşlı tək oğlu intihar edib

**Yanvarın 12-də Neftçala rayonunun Aşağı Surra kəndində intihar hadisəsi baş verib. Virualaz.org saytının Şirvan bürosunun məlumatına görə, 1999-cu ildə anadan olmuş kənd sakini Bəşirov Coşqun Ceyhun oğlunun asılmış meyiti keçmiş kolxozdan qalan istifadəsiz pambıq qəbulu məntəqəsində aşkarlanıb.**

Coşqun Bəşirov səhər evdən heyvanlarını otarmaq üçün çıxıb. Bir müddət sonra telefon zənglərinə cavab vermədiyindən atası onun həmişə heyvan otardığı ərazini axtarıb və oğlunun asılmış meyitini tapıb.

Qeyd edək ki, atası taksi sürücüsü olan Coşqun Bəşirov ailənin yeganə oğludur.

Faktla bağlı hüquq-mühafizə orqanlarında araşdırmalara başlanılıb.

## Ata övladının ad günündə özünü asdı

**Bakıda itkin düşən 48 yaşlı kişinin asılmış meyiti tapılıb. "Report" xəbər verir ki, hadisə Nərimanov rayonunda baş verib. Belə ki, 1969-cu il təvəllüdlü Süleymanov Azər Əkbər oğlu yanvarın 9-u səhər saat 09:00-da evdən çıxıb və geri qayıtmayıb. Ailəsi bununla bağlı Nəsimi Rayon Polis İdarəsinin 20-ci Polis Bölməsinə müraciət edib.**

Polis onu itkin düşmüş şəxs kimi qeydiyyata alıb və axtarışına başlayıb. Araşdırmalar zamanı A.Süleymanovun Nəsibbəy Yusifbəyli küçəsi 41 ünvanında yerləşən sahibsiz tikilidə asılmış meyiti aşkarlanıb.

Qeyd edək ki, A.Süleymanov iki dəfə ailə həyatı qurub. Onun ikinci nikahdan bir övladı var. Hadisə baş verən gün A.Süleymanovun övladının ad günü olub. Amma ata övladının ad günü mərasiminə qatılmayıb. Daha sonra isə həyat yoldaşı Günay Süleymanovanın telefon zənglərinə cavab verməyib.

Faktla bağlı Nərimanov Rayon Prokurorluğunda cinayət işi başlanılıb.

## Bakıda yol faciəsi: 3 nəfər maşının altında qalıb öldü

**Daxili İşlər Nazirliyi Bakıda baş vermiş ağır yol qəzaları ilə bağlı məlumat yayıb. Lent.az nazirliyin mətbuat xidmətinə istinadən xəbər verir ki, yanvarın 11-də saat 21 radələrində Qaradağ rayonunun Lökbatan qəsəbəsində Bakı şəhər sakini Etiqad Kərimov idarə etdiyi "QAZ-2410" markalı avtomobillə yolu keçən qəsəbə sakini Rəhim Hüseynovu vurub. Xəstəxanaya yerləşdirilmiş R.Hüseynov orada ölüb.**

Yanvarın 11-də saat 19 radələrində isə Nərimanov rayonu M.Araz küçəsində Bakı şəhər sakini Rza Balayzadə idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən paytaxt sakini Cəsarət İsayevi vurub və nəticədə piyada hadisə yerində ölüb.

Digər hadisə isə yanvarın 11-də saat 06 radələrində paytaxtın Nizami rayonunun H.Əliyev prospektində baş verib. Bakı şəhər sakini Fuad Behbudov idarə etdiyi "Hyundai" markalı avtomobillə yolu keçən şəhər sakini Cəfər Sadıqovu vurub və nəticədə piyada hadisə yerində ölüb.

YENİ MÜSAVAT
N 7 (6621) 13 yanvar 2017




Cümə söhbətləri

# Səbir nədir və səbir edənlər niyə sevilir?

**Bismilləhir-Rahmənir-Rahim! Həmd olsun Allaha ki, bizlərə, Allahın hüzurunda olmağımızın fərqində olmaq, öz varlığımız barədə düşünmək səadətini nəsib edib.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Allah səbir edənləri sevir

Keçən bəhslərimizdə mühüm bir mövzuya toxunduq. Qeyd etdik ki, bizlərə əsas həqiqəti unutdurublar ki, Allah Təala Öz bəndələrini sevir. Bunu bizim yadımızdan çıxartdırıblar. Biz mövzudan kifayət qədər qəflət etmişik. Allah Təala bizlərin hər birini, yaratdığı hər bir varlığı, xüsusilə də insanları sevir. Ona iradə, dərk, tutum, şüur verib. Yaradan yaratdığı hər bir bəndəsini sevir. Öz Kitabında da bu sevgisini müxtəlif ünvanlarla bəyan edib. Müxtəlif xüsusiyyətlər, cəhətlər, keyfiyyətlərə görə bu sevgisinə vurğun edib. Bu vurğuların ən mühümlərindən biri də səbir edənlərlə bağlıdır. Qurani-Kərimin "Ali İmran" surəsinin 146-cı ayəsində Allah Təala səbir edənləri sevməsini bəyan edib: "Həqiqətən Allah səbir edənləri sevir".

## Səbir öz-özlüyündə sevilməli xüsusiyyətdir

Dəyərli əxlaq, ürfan alimlərindən birinin buyuruşu ilə desək, ümumi sevgini, məhəbbəti bir qədər də açsaq, bu vurğu gəlir ki, səbir etmək özü sevilməlidir. Misal üçün, Allah Təala Qurani-Kərimdə təvəkkül edənləri sevməsini də bəyan edir. Təvəkkül özü-özlüyündə sevilməli bir xüsusiyyətdir. Kim səbir etsə, bu cəhətinə görə sevilər. Əgər insan Allahın sevdiyi bütün cəhətlərə malik ola bilsə, Allahın kamil sevimlisinə, sevilən bəndəyə çevrilmiş olar.

## Toplumumuzda səbir sözü yanlış mənalarda işlədilir

Deyə bilərik ki, bizim toplumumuzda səbir sözünə zülm olunub. Səbir sözü Qurani-Kərim anlayışında, İslam təlimində zərrə qədər də mənfi yükə malik deyil. Səbir bir Qurani anlayış olaraq nurani, işıqlı mənaları özündə ehtiva edir. Səbir elə bir anlayışdır ki, Quran baxımından, İlahi meyarlar baxımından bir dənə də olsun mənfi dəyərləndirilə bilinəcək nümunədə, misdaqda öz əksini tapmır. Necə ki, təqva sözü büsbütün müsbət anlayışdır, heç bir halda mənfi yükdə işlədilə bilməz, eləcə də səbir sözü heç bir mənfi yükə malik deyil. Əgər hər hansı bir toplumda təqva sözünü mənfi anlamda işlətsələr, bu, o sözün həmin toplumda səhv işlənilməsinin göstəricisidir, nəinki bu sözün mənfi yükə malik ola bilməsinin. Belə ki, təqva sözü öz-özlüyündə Quran istilahıdır və heç bir halda mənfi yükə malik deyil.

O cür də səbir sözü yalnız müsbət mənaları daşıyır. Bəzən toplumumuzda "biz səbir edə-edə bu cür oldu", "səbrin axırı belə oldu" və s. kimi mənfi yüklü cümlələrdə səbir sözü istifadə edilir. Bu, səbri düzgün anlamamaqdan qaynaqlanır. Səbir - qorxaqlıq, acizlik, zəiflik, hərəkətsizlik, mütilik deyil. Səbir - hərəkətin, müqavimətin, dinamikanın özüdür. Səbir hər mənada mütiliyə, qorxaqlığa, acizliyə, zəifliyə qarşıdır.

## Səbir nədir?

Allah Təala bəyan edir ki, səbir edənləri sevir. Səbir etməkdə nə var? Səbir edənlərin nə imtiyazları var ki, Allah Təala onları sevir? Allah Təala heç bir insanı elə-belə sevməz. Elə də çox qrup insanlar yoxdur ki, Allah Təala onları sevmiş olsun. O azsaylı qruplardan biri ki, Allah Təala xüsusi olaraq onları sevməsini bəyan edir, həm də səbir edənlərdir. Bəs səbir edənləri bu qədər imtiyazlandıran nədir? Onların fərqli xüsusiyyətləri nədir?

Allahın sevgisini qazanmaq - Allah bəndəsi olmaqdan keçir. Kim nə qədər Allah bəndəsi olsa, o qədər də Allahın sevimlisi olar. İnsan nə qədər İlahi rəngə boyansa, o qədər Allahın sevgisini qazanmış olur. Həyatımızı nə qədər nurani yaşasaq, nurani tutumumuzu artırsaq, İlahi boyaya bürünsək - bir o qədər Allah tərəfindən çox sevilərik.

Səbir bir keyfiyyətdir ki, bir neçə mövzunu zəruri edir. Birinci zəruri şərti - imandır. Səbir həm də iman deməkdir. Səbir - bilməyin, etiqadın, mərifətin ən kamil formasıdır.

Digər tərəfdən, səbir anlayışının içərisində mərifət, bilgi, etiqad, imanla yanaşı, həm də əməl var. Yəni, İslamda bəyənilən insan, Allah bəndəsi - səbir edən kəsdir. Həm ən ali imana malikdir, həm də əməlləri ən gözəl şəkildədir. Deməli, səbrin bir tərəfdən imanla, başqa bir tərəfdən isə əməllə ciddi bağlantısı var.

Səbir həm də Allaha doğru hərəkətin bir simvolu, rəmzidir. Allaha doğru gedən yolun bir neçə rəngi var. Bunlardan biri İlahi xofdur. İnsan gərək Allaha doğru gedəndə, buna malik olsun. İlahi xofa malik olsun ki, mən Allah hüzurundayam, mənə nemətlər verib, bu halın dəyərini bilirəm, qorxuram ki, bunları itirərəm. Buna İlahi xof halı deyirlər. İnsan ürkək bir hala malikdir ki, əlində olan nemətləri, yaxşı halını itirə bilər. Və əgər əksinə - pis haldadırsa, bu vəziyyətlə bağlı aqibətinin necə olacağının nigaranlığındadır. Yaxşı halda olanda, bu halı itirmək istəmir, pis halda olanda isə bu haldan canını qurtarmaq istəyir. Hər 2 halda motiv - İlahi xofdur ki, onu mənfidən müsbətə doğru hərəkət etdirir və müsbəti itirməməklə bağlı ona əzm və ayıqlıq verir.

Bu mənada Allaha doğru aparan yolun bir mühüm rəngi - məhz İlahi xofdur. Digər bir rəng də məhz səbir halıdır. Səbrin canı - müqavimətdir. Mənfiyə müqavimət, reqressə müqavimət. İnsan Allaha həqiqi bəndəlik edir, bu, bəzən ona çətin gəlir, amma müqavimət göstərir ki, yoldan çıxmasın. Çünki Allaha gedən yol bundan keçir. O, itaət edir, bütün çətinliklərə səbir edir.

Bu anlamda səbir - Allaha, səadətə, fəlaha aparan yolun, qələbə və müvəffəqiyyətə çatmağın ən zəruri xüsusiyyətlərindən biridir.

## Səbrin 3 müstəvidə təzahürü

Həzrət Əli (ə) bizlərə səbrin 3 müstəvidə mühüm təzahürlərini öyrədir. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Səbir - ya müsibət qarşısında, ya itaət etməkdə, ya da günahı tərk etməkdə səbirdir. Üçüncü növ, əvvəlki iki növdən üstündür".**

Yəni bizim səbir etməmiz üç müstəvidə baş tutur. Bunlardan birincisi - müsibətlərlə üzləşiləndə səbir etməkdir. İnsan yaxın olan birisini itirir, ya özü və ya əzizi xəstələnir, ya qarşısına ruzi müşkülləri çıxır, ya kənardan müxtəlif amillərlə rastlaşır ki, mühüm çətinliklər yaradır və s. Bunların hamısı - müsibətin növləridir. İnsan ağlına gələn və gəlməyən müsibətlərlə qarşılaşa bilər. Yaxşısı budur ki, bizlər dualarımızda Allahdan istəyək ki, bizlərə gücümüz çatmayacağımız müsibətləri nəsib etməsin.

Xoş durumun öz müsibətləri var, ağır durumun öz müsibətləri. İnsan o müsibətlərlə qarşılaşanda Allaha bəndəlik cığırından çıxmasa, Allaha bəndəlik yolu ilə ki, gedir, o yolunu tərk etməsə, o müsibətlər onu səbatlı vəziyyətindən çıxarmasa, necə gedirdisə elə də davam etsə - buna müsibətlər qarşısında səbir deyilir.

Səbrin ikinci növü - itaətdə səbirdir. Yəni Allaha bəndəlik, Allaha itaət, Allahın buyuruqlarını etmək və bunları həyata keçirərkən qarşıya çıxan çətinliklərə müqavimət göstərmək - səbirdir. Allah bizlər üçün qaydalar qoyub, İlahi qanunlar qoyub. Onlara əməl edərkən çətinliklər çıxır, bəzən ağrılı olur. Bəli, Allaha itaətin çətinlikləri meydana gəlir, heç də həmişə bu çətinliklər zahirən şirin olmur. Amma Allahın itaətində olanda, Allaha bəndəlikdə olanda bütün ağrılara dözmək, müqavimət göstərmək - itaətdə səbirdir. Allah istədiyi üçün, Allahın razılığı üçün, Allah bəyəndiyi üçün işlər görürük, çətinliklər meydana gələndə müqavimət göstəririk - bu, itaətdə səbirdir.

Səbrin üçüncü ən ciddi növü isə günah qarşısında səbirdir. Nəfsani istəklər çox zaman şərikli gəlir. Bunları dürüstlüklərdən seçmək bəzən çətin olur. Növbənöv, rəngarəng günahlar var. Günahdan imtina edəndə bəzən ağrılı olur. Bu ağrının müqabilində dayanmağı bacarmaq, müqavimət göstərmək - günahı tərk etməkdə səbirdir. Həzrət Əli (ə) mübarək buyuruşunda bizlərə çatdırır ki, günahı tərk etməkdə səbir etmək - müsibətlər qarşısında səbirdən və itaətdə səbirdən daha üstündür.

## Səbir - imanın özüdür

Səbrin baş tutması üçün köklü iman lazımdır. Səbir, yəni iman. Həzrət Rəsulallahdan (s) soruşurlar: **"İman nədir?"** Həzrət Peyğəmbər (s) cavab verir: **"Səbir".** İman, səbir deməkdir. İmanın bütün nümunələrinə, bütün mistaqlarına baxsaq, bütün nəticələrinə baxsaq, görərik ki, hamısı səbrin təzahürləridir. Bu anlamda səbir iman deməkdir.

Möminlərin xəmiri də səbirlə yoğrulub. İmanlılığın xəmiri səbirlədir. İnsan daima öz-özü ilə seçimdədir. Bir kiçik ailədir - orada seçim etməlidir, orada yaranan hər bir vəziyyətə uyğun davranmalıdır. Ətrafda hər bir insanla davranarkən, seçimlər qarşısındadır. İnsanın bütün həyatı seçimlərdən ibarətdir. Möminin xəmiri bu seçimlər qarşısında göstərdiyi səbirlə yoğrulub. Həzrət İmam Sadiq (ə) buyurur: **"Mömininin xəmiri çətinliklərə səbir etməklə yoğrulmuşdur".**

İnsan müsibətlərlə qarşılaşır, yoluna davam edir. Bu, əlbəttə ki, çətindir, amma səbir edir. Allaha bəndəliyini edir, çətinliklərlə qarşılaşır, itaətini davam etdirir. Günahlar onu cəzb edir, imtina edir. Mömininin xəmiri bu davam etməklərdə yoğrulub. Həzrət İmam Sadiq (ə) buyurur: "**Səbir, imanının başıdır**". Yəni iman əməlsiz olmur. Əgər iman varsa, onun təzahürü var. Diri, aktiv iman varsa, aktiv əməl var. Bu əməlin başında səbir dayanır.

## Səbirlə ali məqamlara yiyələnmək

Həzrət Əli (ə) buyurur: **"Səbirlə ali məqamlara çatmaq olar".** Ali məqamlara çatmaq, ali əxlaqlara gedən yol yalnız səbirlə keçilər. Bunun üçün Allahı tanımaq və Allahın buyuruşlarını qəbul etmək, onlara təslim olmaq lazımdır. Həzrət Rəsulallah (s) buyurur: **"Səbir - razılıqdır".** Səbir edən Allaha təslim olmağa razıdır, bu halından məmnundur. Allaha itaət edir və dözür, çünki Allaha təslim olmağa razıdır. Günahdan imtina edir və bunun yaratdığı çətinliklərə dözməyə razıdır, çünki, Allaha təslim olmağa razıdır. Özünü Allaha təslim edən insan - Allaha bəndə olmuş insandır.

Həzrət Əli (ə) buyurur: **"Səbrin kökü - Allaha həqiqi əminliyin olmasıdır".** Əgər insanın Allaha ciddi əminliyi, ciddi imanı olmasa, gerçək mərifəti olmasa - səbir edə bilməz. Belə insan itaətdə, Allaha bəndəlikdə davamlı ola bilməz. Gərək dərin əminliyi olsun ki, nəticədə əməlləri Allah istəyən tərzdə olsun. Gərək əminliyi olsun ki, günahın bütün aldadıcı zahiri şirinliyindən imtina etməyi bacarsın. Gərək əminliyi olsun ki, hər hansı müsibət küləyi gələndə, onu silkələyib yerə çırpmasın. Allah buyurub ki, hər zaman namuslu yaşayacaqsan, dürüst olacaqsan, həqiqətlə olacaqsan, Allah bəndəliyinə aparan yolda olacaqsan. Allah bizlər üçün halallar və haramlar qoyub. Halal olanları seçmək, haramlardan uzaq olmaq adama çətin gələ bilər, amma şərəflidir. Bu itaət yolu - şərəfli, namuslu, dürüst yoldur.

## Səbir etmədən sevdiyimizə çatmayacağıq

Həzrət İsa (ə) buyurur: **"Siz xoşunuza gəlməyənə səbir etməsəniz, sevdiyinizə çatmayacaqsınız".** Sənə nə isə xoş deyil, çətindir, ağırdır - amma səbir edəcəksən, Allahın razılığına uyğun davam edəcəksən, sevdiyinə, bu cür sevdiyin Rəbbinə qovuşacaqsan. Bu, səbrin hər üç müstəvisinə aiddir. Bəndəlik edərkən çətinliklər hiss edirsən, narahatlıqlar meydana gəlir. Amma, Allaha itaət edərkən bütün çətinliklərə müqavimət göstərirsən. Günahın aldadıcı şirinliyi səni özünə çəkmir. Bu, ola bilsin ki, heç də asan deyil, amma şərəflidir. Məhz buna görədir ki, Allah Təala səbir edənləri sevir. Çünki səbir edənin bu cür böyük istedadı, ləyaqətli xüsusiyyətləri var.

## Qəlb öz nurunu səbirdən alır

Səbir qəlbi gücləndirir. İnsanın daxili günəşi qəlbdir. Əgər o günəş parlaq vəziyyətdə olsa, bütün həyatına nur saçar. Əgər günah buludları onun qarşısını kəssə, bütün həyatı zülmətə qərq olar. Səbir o qəlbimizi, o günəşi parlaq vəziyyətə gətirir. Həzrət Əli (ə) buyurur: **"Xoşagəlməz işlərin müqabilində özünü səbrə vadar etmək qəlbi gücləndirər".** Qəlb Allah üçün səbir etməklə güclənir. Zahiri anlamda rahat, amma qarışıq həyat qəlbi öldürür. Nə qədər ki, Allaha bəndəlik var və bunun müqabilində meydana gələn çətinliklərə səbir var - qəlb güclənir.

**Allahım, bizlərə həqiqi səbrə yiyələnməyi nəsib et!**

**Allahım, hər an Sənin hüzurunda olmağımızı xatırlamağı, bundan güc almağı və Sənə itaət yolunda bütün çətinliklərə səbir etməyi nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 7 (6621) 13 yanvar 2017

# Çinin ən ağır donuzu

Çinin Xenan əyalətində çəkisi 750 kilo olan donuz aşkarlanıb. Ona "ölkənin ən iri canlısı" titulu verilib. Bu barədə "People's Daily Online" yazıb. Heyvanın uzunluğu 2,1 metr, hündürlüyü isə 1.5 metrdir. "Daily Mail"in yazdığına görə, ən böyük heyvan müsabiqəsini yerli fermer assosiasiyası təşkil edib. Donuzun Çjan adlı sahibi isə 3 ildir ki, onun qayğısına qalır. Sahibinin dediyinə görə, donuz çox yeyir və buna görə də ölçüləri inəyin ölçülərinə yaxınlaşıb. Xəbərdə qeyd olunur ki, ölkənin tarixindəki ən böyük donuz Ton Piq ləqəbli heyvan olub. Onun çəkisi 900 kilo olub. 4 yaşlı heyvan 2004-cü ildə ölüb. Bu ilin avqustunda isə məlum olmuşdu ki, Çinin Futsyan əyalətində ölkənin ən iri timsahı ilə "evlənmək" üçün 16 namizəd təyin olunub. 46 yaşlı siam timsahının uzunluğu 6.5 metr olub. Timsah parkında saxlanan timsahın çəkisi isə 1.5 ton olub.





## Pulsuz nahar qazanmaq üçün idman edirlər

"David Lloyd Clubs" fitnes klub şəbəkəsi Londonda yeni kafe açıb. Bu kafedə müştərilər hesabı idman hərəkətləri etməklə ödəyə bilirlər. Lenta.ru saytı yazır ki, müəssisədə pulsuz lanç qazanmaq o qədər də çətin deyil. Bunun üçün 6 dəqiqəlik yüksək intensivlikli proqramı həyata keçirmək lazımdır. Ona bir çox çətin idman hərəkətləri daxildir. Yüksək enerji tələb edən bu idman hərəkətlərinə görə müştərilər tərəvəzli pitsa, eləcə də yağda qızardılmış pendir verilir. Bundan başqa, onlara qoz, meyvə kimi təamlar da təqdim olunur. Yeni kafe British "Heart Foundation" adlı xeyriyyə təşkilatını da maliyyələşdirəcək. Sözügedən məkan 11-13 yanvar tarixlərində saat 12:00-15:00 aralığında açıq olacaq.

"David Lloyd Clubs"un təsisçiləri müasir insanların həyat tərzində dəyişikliyi vacib hesab ediblər. Çünki insanlar günlərinin 90 faizini ofislərdə, oturaq iş sistemində keçirirlər. Hesablamalara görə, orta iş günü 8 saat, ildə isə 1576 saat (təxminən 65 gün) təşkil edir. Bundan başqa, respondentlərin üçdə biri boynuna alıb ki, yeməyi də monitor arxasında yeməyə üstünlük verirlər.

# 9 ay ərzində iki dəfə ana oldu

Qalli Keyr Ormrod 9 ay boyunca düz iki dəfə ana olmaqla həkimləri heyrətə salıb. Tibb tarixinə keçən 26 yaşlı Ormrod say etibarilə dördüncü uşağı olan qızı Alisanı 2011-ci ilin 6 dekabrında, 25 həftəlik ikən dünyaya gətirib. 540 qram doğulan AliSA Gallerin çəki baxımdan ən balaca uşağı olub. 7 həftə sonra yenidən hamilə qalan Ormrod beşinci uşağı olan Garethi isə 7 sentyabr 2012-ci ildə dünyaya gətirib. 29 həftəlik ikən 906 qram olaraq doğulan Gareth də böyük bacısı kimi təcili qeysəriyyə əməliyyatı ilə dünyaya gəlib. Ormrod indiki zəmanədə 5 uşaq anası olmanın az qala qəhrəmanlıq olduğunu deyib: "Mənə ikiqat qəhrəman demək olar. Çünki başqa qadınlar 9 aya bir uşaq dünyaya gətirdikləri halda mən ikisini dünyaya gətirmişəm".





## Keşiş insanları danışdırmaq üçün döyüb

Nyu Cersidəki (ABŞ) Baptist kilsəsinin keşişi Erik Demenn danışıb ki, insanları dini inanca gətirmək üçün fiziki gücdən istifadə edib. Hətta çıxışlarından birində deyib ki, bir dəfə balaca bir uşağı sinəsindən vurandan sonra o, Allaha inanmağa başlayıb. Demennin sözlərinə görə, bu, bir neçə il əvvəl Kanadada yaşadığı vaxt baş verib. O vaxt keşiş gənclərlə çalışırmış. Ben adlı yeniyetmə isə həmin vaxt Allahı ciddi qəbul etmirmiş. "Mən ona yaxınlaşdım və sinəsinə zərblə bir neçə dəfə vurdum. Bundan sonra ona yenidən "Allaha inanırsanmı" sualını verdim və o, bu dəfə inandığını dedi". Keşişin bu çıxışı 2014-cü ilin sonunda yayımlanıb.




QOÇ - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

BUĞA - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

ƏKİZLƏR - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

XƏRÇƏNG - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

ŞİR - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyin. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

QIZ - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var. Tədbirli olun.

TƏRƏZİ - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şans qazanacaqsınız.

ƏQRƏB - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

OXATAN - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yöndə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

OĞLAQ - Bu təqvimin dini-mistik mahiyyətini anlamağa çalışın. Tanrıya zidd olan addımlardan yayının, müqəddəs ocaqlara gedin. Çalışın ki, dilinizdən yalnız xoş sözlər, dualar çıxsın.

SUTÖKƏN - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

BALIQLAR - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Qar adam" qatara 5 min avroluq ziyan vurdu



Almaniyada bir qatar maşinisti yoluna "qar adam" çıxdığı üçün fövqəladə vəziyyətlər üçün istifadə etdiyi əyləci basıb. Bu barədə ölkədə nəşr olunan "Bild" qəzeti yazıb. İnsident ölkənin Meklenburq ərazisində, axşam saatlarında baş verib. "Qar adam"ın hündürlüyü 1.5 metr olub. Ona görə də maşinist yolunun üstündə dayanan qar adamı yox, qarın altında qalmış bir adam olduğunu düşünərək, qəfil əyləci basıb. Ümumilikdə qatarın əyləc sisteminə 5 min avroluq ziyan dəyib. Heç kimə xətər dəymeyib. Polis qar adamını qatar yolunun üstünə qoyan 3 nəfər şübhəli şəxsi axtarır. Amma onların şəxsiyyəti hələ müəyyənləşdirilməyib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100